www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 yanvar 2016-cı il Çərşənbə axşamı № 7 (6328) Qiymәti 50 qәpik

**Xəbər**

## Bakıda kişi arvadını killer tutub öldürtdürdü

yazısı səh.14-də

**Gündəm**

### Banklar əhalini aldatmaqla pul qazanmaq istəyir



Ekspertlər bildirirlər ki, müflislik həddində olan banklar əmanətlərin tam sığortalanmasını istəyir, çünki...

yazısı səh.12-də

### Prezident Zəlimxan Yaqubla vida mərasiminə qatıldı

yazısı səh.3-də

*Tural Abbaslı:*

### "Qubad İbadoğlu ilə görüşümüz olmayıb"

yazısı səh.4-də

*Ədalət Əliyev:*

### "Aeroportda ölkəyə gələnlərin ucdantutma yoxlanılması, sadəcə, oyunbazlıqdır"

yazısı səh.5-də

### Rəsmi Bakının Türkiyə ilə Rusiya arasında vasitəçilik təklifi niyə qəbul edilmədi...

yazısı səh.9-da

*Natiq Miri:*

### "Xalqın onları dəstəkləyəcəyinə müxalifətdə əminlik yoxdur"

yazısı səh.11-də

### Rusiya Ermənistan-Türkiyə sərhədinə müasir silah yerləşdirdi

yazısı səh.9-da

### İranla Səudiyyə Ərəbistanı arasında müharibə təhlükəsi...

yazısı səh.8-də

*Əli Məsimli:*

### "Əhaliyə dəyən ziyanı aradan qaldırmaqdan ötrü adekvat tədbirlər görülməlidir"

yazısı səh.7-də

### Bakıda qabaritli transformatorlar zavodu açıldı

yazısı səh.3-də

## "Bunun səbəbi kənarda yaranıb"

# PREZİDENTİN MESAJLARI: İCRA BAŞÇILARI ƏNDİŞƏDƏ

Ötən il keçirilən müşavirələrdən fərqli olaraq dövlət başçısı nazirlərə dəymədi, onları tənqidlərdən qorudu, amma bu o demək deyil ki...; prezidentin çıxışındakı "xarici faktorlar"ı xatırlatmaq nəyə hesablanıb? Xalq manatın devalvasiyasından daha qorxulu olandan -yarana biləcək xaos və siyasi gərginlikdən ehtiyat edir...




yazısı səh.4-də

## Rusiyadan ermənilərə "tərs sillə" effektli zərbə - tanınma olmayacaq

Saxta soyqırımı inkara görə cəza nəzərdə tutan qanunun qəbulu ehtimalı günbəgün azalır; Kreml ermənilərə görə Ankara ilə bütün körpüləri yandırmayacaq; azı 4 səbəb var...

yazısı səh.9-da



### Sumqayıt oliqarxları Zakir Fərəcova qarşı

yazısı səh.10-da



*Sülhəddin Əkbər:*

### "Yaranan vəziyyət özü ilə bərabər müxalifətini yetişdirəcək"

yazısı səh.6-da



*Rauf Arifoğlu:*

### "Gələn aydan həftədə 5 dəfəyə keçmək məcburiyyətindəyik"

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 7 (6328) 12 yanvar 2016



## Prezident 2016-cı ili "Multikulturalizm ili" elan etdi

**Prezident İlham Əliyev 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən 2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilib.**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının təkliflərini nəzərə alaraq, 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

## İtkin düşən neftçilərdən daha birinin cəsədi tapıldı



**Xəzər dənizinin Türkmənistan sektorunda daha bir cəsəd aşkar edilib. Bu haqda Azərbaycan tərəfinə məlumat verilib. SOCAR-dan "APA-Economics"ə verilən məlumata görə, hazırda gəmiyə qaldırılmış cəsəd sahilə aparılır. Azərbaycan Fövqəladə Hallar Nazirliyinin və "Azneft" İstehsalat Birliyinin əməkdaşları tərəfindən cəsədin tanınması və respublikamıza gətirilməsi üçün tədbirlər görülür.**

Cəsədi aşkarlanan mexanik, 1958-ci il təvəllüdlü Qasımov Mübariz Dilqəm oğludur.

Dekabrın 4-də təbii fəlakət nəticəsində Neft Daşlarındakı 501 və ''Günəşli'' yatağındakı 10 saylı dəniz özüllərində baş vermiş qəzalar nəticəsində itkin düşmüş neftçilərin axtarışı davam edir.

## Azərbaycanlı milyarderdən erməni məsələsinə görə sərt mövqe

### Fərhad Əhmədov: "Vətəndaşlıqdan çıxaram..."

**Azərbaycanlı milyarder və ictimai-siyasi xadim Fərhad Əhəmədov Rusiya Dövlət Dumasının spikeri Sergey Narışkinə məktub yazaraq "erməni soyqırımı"nın inkarına görə cinayət məsuliyyətini nəzərdə tutan qanun layihəsinin qəbuluna imkan verməməyə çağırıb.**

Məktubun virtualaz.org saytının redaksiyasına göndərilmiş surətində deyilir ki, əgər bu qanun layihəsi qəbul edilsə, Fərhad Əhəmədov Rusiya vətəndaşlığından çıxacaq.

Xəbər verildiyi kimi, "erməni soyqırımı"nın inkarına görə məsuliyyət nəzərdə tutan qanun layihəsi ötən ilin noyabrında Dövlət Dumasına təqdim edilib. Sənədin müəllifi "Ədalətli Rusiya" fraksiyasıdır. Bugünlərdə məlum olub ki, Rusiyadakı azərbaycanlı diasporunun 30-a qədər tanınmış nümayəndəsi Narışkinə məktub göndərərək qanun layihəsinin müzakirəyə çıxarılmasından çəkinməyə çağırıb. Eyni zamanda məlum olub ki, Rusiyadakı azərbaycanlı diaspor təşkilatlarının rəhbərləri həmin məktubu imzalayanlara təzyiq göstərib.

Narışkinə məktubunda Fərhad Əhəmədov yazır ki, 1995-ci ildə Duma "erməni soyqırımı"nı pisləyən qətnamə qəbul edib. İndi isə "soyqırımı" inkar edənlərə qarş məsuliyyət nəzərdə tutan qanun layihəsinin müəlliflərinin motivi ona aydın deyil. "Təəssüflə bildirirəm ki, əgər bu və ya digər səbəbdən həmin qanun layihəsi qəbul edilsə, həyatımın 40 ilini verdiyim, o cümlədən 5 il Federasiya Şurasının üzvü kimi xidmət etdiyim Rusiyanın vətəndaşlığından imtina edəcəyəm"-məktubda deyilir.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.50 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Vasif Talıbovun həyat yoldaşı təcili Türkiyəyə aparıldı

### Sevil Talıbovanın "donuz qripi"nə yoluxmasından şübhələnilir

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun həyat yoldaşı Sevil Talıbova donuz qripinə yoluxma təhlükəsi ilə təcili Türkiyəyə aparılıb.**



Qafqazinfo.az xəbər verir ki, Sevil Talıbovanın yerləşdirildiyi yerli xəstəxanada səhhəti daha da ağırlaşıb. Talıbovanın ailəsi Türkiyə Səhiyyə Nazirliyindən yardım istəyib. Türkiyədən gələn həkimlərin ilkin müdaxiləsindən sonra xəstə ECMO adlanan cihaza qoşulub. Həmin cihazdan ağciyərlər funksiyasını yerinə yetirmədikdə və ya ürək fəaliyyəti dayandığı halda istifadə edilir. S.Talıbova helikopterlə İbn Sina xəstəxanasına götürülüb. Vasif Talıbov və uşaqları isə onların ardınca digər helikopterlə Ankaraya uçublar.

Ağciyərində problem yaranan 55 yaşlı diabet xəstəsi S.Talıbovanın hazırda səhhətinin yaxşılaşdığı qeyd edilir.

Bildirilir ki, S.Talıbova Türkiyəyə xaricdən ECMO cihazı ilə gətirilən ilk xəstə olub.

Qeyd edək ki, xəbəri ilk olaraq Türkiyənin "Milliyet" qəzeti yayıb.



Elməddin Behbud

## "QHT Şurasının müsabiqə şərtlərində dəyişiklik olmayacaq"

**"Manatın devalvasiyası Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının layihələri maliyyələşdirməsinə təsir etməyib".**

Bu barədə musavat.com-a şuradan məlumat verilib. Şuranın mətbuat xidmətinin rəhbəri Elməddin Behbud mövzu ilə bağlı aşağıdakıları bildirib: "Bildiyimiz kimi, 2015-ci il üzrə dövlət büdcəsi ötən ilin sonlarından təsdiq olunub. Şuranın Əsasnaməsində əksini tapan məqsədlərin həyata keçirilməsi və digər zəruri xərclər üçün də builki dövlət büdcəsindən bu quruma müvafiq vəsait ayrılıb. 14 dekabr 2015-ci ildə şura 2016-cı il üçün milli QHT-lərin layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elan edib. Müsabiqə elanında bütün şərt və qaydalar əksini tapıb və bundan sonra orda hər hansı dəyişiklik etməyə zərurət yoxdur. Qeyd edim ki, 15 yanvaradək şuraya layihə təqdim etmək mümkündür. Şura bütün əməliyyatları milli pul vahidimiz-manatla apardığından müsabiqə qalibi olacaq QHT layihələri də müvafiq qaydada maliyyələşdiriləcək, hər hansı artma, yaxud azalma nəzərdə tutulmur".

❑ Əli RAİS



## Masallının mərkəzi küçələrində naqilli "ölüm tələsi"

### Açıq elektrik naqilləri hər an faciəyə səbəb ola bilər...

**Masallıda daha bir təhlükəli problem ortaya çıxıb. Musavat.com cenubnews.com-a istinadən xəbər verir ki, rayonun mərkəzi küçələrindəki işıq dirəklərinin naqilləri dirəyin içi ilə yox, üstü ilə çəkilib. Bu da təbii ki, piyada yolunda hərəkət edənlər, xüsusən də məktəbli uşaqlar üçün ciddi təhlükə kəsb edir.**

O da bildirilir ki, bu işıq dirəkləri gecələr yolları işıqlandırmaq üçün olsa da əksər küçələrdə, sadəcə, formal olaraq mövcuddur. Yəni hər 10 dirəkdən 5-də işıq yanmır.

Bununla belə, problemin ciddiliyini nəzərə alıb aidiyyəti qurumların qısa müddətdə təhlükəsizlik tədbirləri görəcəyinə ümid edirik.

❑ NURLAN

## "Qara bazar" canlandı - dollar iki manata satılır



**Bakıda valyuta satışının məhdudlaşdırılmasından, daha dəqiq desək, adambaşına 300-500 dollar/avro satışına icazə verilməməsindən sonra "qara bazar" yenidən canlanmağa başlayıb. Contact.az-ın məlumatına görə, hazırda qeyri-qanuni "exchange"lər 1 dolları 1,9-2 manata, 1 avronu isə 2,1 manata satırlar. Azərbaycan Mərkəzi Bankının rəsmi məzənnələrinə görə isə 1 dollar 1,5642 manata, 1 avro isə 1,7072 manata bərabərdir. Xarici valyuta bu qiymətlərdən 4% kənarlaşma ilə satıla bilər.**

## Putin Qərb liderləri ilə görüşdən imtina etdi

**Rusiya prezidenti Vladimir Putin Münhen təhlükəsizlik konfransında iştirak etməyəcək. Virtualaz.org "interfaks"da istinadən bildirir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. APA xatırladır ki, konfransda 20 dövlət və hökumət başçısı, habelə 60 ölkənin xarici işlər və müdafiə nazirlərinin iştirakı gözlənilir.**

Forumda ABŞ nümayəndə heyətinə vitse-prezident Cozef Bayden, Rusiya nümayəndə heyətinə isə xarici işlər naziri Sergey Lavrov rəhbərlik edəcək. Almaniya kansleri Angela Merkel isə son 4 ildə ilk dəfə Münhen konfransında iştirak etməyəcək.

Forumun rəhbəri Volfqanq İşinqer İran və Ukrayna prezidentlərinə dəvət məktublarının göndərildiyini, lakin cavab verilmədiyini bildirib.

Qeyd edək ki, Münhen təhlükəsizlik konfransı 1962-ci ildən keçirilir.

## Nazirlik süni qiymət artımına qarşı tədbirlərə başladı

**İqtisadiyyat və Sənaye Nazirliyi prezident İlham Əliyevin tapşırığına əsasən istehlak bazarında nəzarəti gücləndirib.**

Bu barədə virtualaz.org saytına nazirliyin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev məlumat verib.

A.Əliyevin sözlərinə görə, süni qiymət artımına yol verənlərə qarşı cəza tədbirləri müəyyənləşib: "İstehlak bazarında süni qiymət artımına yol verməmək üçün nazirlik, eləcə də Baş Prokurorluq tərəfindən tədbirlər planı hazırlanıb. Süni bahalaşma yaradanlara qarşı yalnız cərimələrin tətbiqi deyil, eləcə də digər ciddi inzibati tədbirlər nəzərdə tutulub. Yaxın vaxtlarda həyata keçiriləcək tədbirlərlə bağlı açıqlama veriləcək".

A.Əliyev qeyd edib ki, manatın kursunda baş vermiş dəyişiklikdən sonra süni qiymət artımı, məqsədli mal qıtlığı yaradılması və digər sui-istifadə cəhdlərinin qarşısının alınması üçün İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti və Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən birgə tədbirlər planı hazırlanıb.

Süni qiymət artımı və malqıtlığı yaratmaqla vəziyyətdən sui-istifadə edən təsərrüfat subyektləri barədə, habelə inhisarçılıq və korrupsiya kimi neqativ halların vaxtında aşkar edilərək qarşısının alınması məqsədi ilə tədbirlər həyata keçirilməklə qanun pozuntularına yol vermiş şəxslər barəsində ən ciddi tədbirlər görüləcək.

Onu da qeyd edək ki, prezident Nazirlər Kabinetinin yanvarın 10-da keçirilən 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında süni bahalaşmaya son qoyulması ilə bağlı tapşırıqlar verib.

## Blogger 15 sutka həbs olundu

**Gənc blogger Hüseyn Əzizoğlu inzibati qaydada həbs edilib. Bu haqda məlumatı musavat.com-a Hüseynin anası Elnarə Baxışova verib. Onun sözlərinə görə, Hüseyni yanvarın 8-də həbs ediblər.**

H.Əzizoğlunun həbs edilməsinin səbəbi məhəllədə tanımadığı bir nəfərlə yüngülcə dalaşması olub. Həmin gənc polisə şikayət edib.

Anasının sözlərinə görə, bundan sonra Yasamal rayon 29-cu polis bölməsinin əməkdaşları onu evindən tutub aparıblar: "Hüseynə 15 sutka həbs veriblər. Yanına da getmişdim. Vəziyyəti yaxşıdır. Onunla dalaşan gənc şikayət ərizəsini geri götürmədi. Ona görə də həbs ediblər".

**Elnarə Baxışova deyib ki, onun həbsinin çəkdiyi videolarla əlaqəsi yoxdur:** "Sosial şəbəkələrdə yayılan məlumatlar düz deyil. Hüseyn dalaşdığını özü də deyir. Hər şey ona görə olub".

Hüseyn Əzizoğlu hazırda Binəqədi inzibati cəzaçəkmə məntəqəsində saxlanılır.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Prezident Zəlimxan Yaqubla vida mərasiminə qatıldı

## Xalq şairi Fəxri Xiyabanda torpağa tapşırıldı







**Yanvarın 11-də «Təzəpir» məscidində müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, xalq şairi Zəlimxan Yaqubla vida mərasimi keçirilib.**

Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Əvvəlcə Qurani-Kərimdən ayələr oxunub. Dövlətimizin başçısı mərhumun ailə üzvlərinə başsağlığı verib. Sonra xalq şairi Zəlimxan Yaqubun cənazəsi son mənzilə yola salınıb.

Vida mərasimində dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri, mədəniyyət xadimləri iştirak ediblər.

**Əməkdar artist Zöhrə Abdullayeva Zəlimxan Yaqubun ölümünün türk dünyası üçün böyük itki olduğunu bildirib:** "Zəlimxanın ölümü mənim üçün çox ağırdır. Dahi söz ustadını itirdik. Onun ölümü Azərbaycan ədəbiyyatına ağır itkidir. O, gözəl şair, insan, natiq idi. Onun şeirlərinə yazılan mahnıları oxumuşam. Gəlmişəm ki, son borcumu yerinə yetirim, dəyərli şairi uğurlayım. Tez-tez zəng etməyə utanırdım. Çünki danışmağa əziyyət çəkirdi".

**Xalq artist Canəli Əkbərov bildirib ki, Zəlimxan Yaqubun ölümü Azərbaycan ədəbiyyatına böyük itkidir:** "Zəlimxan həmişə tədbirlərdə mənə Canəli Borçalı deyirdi. O, dəyərli adam idi. Əsl ailəyə buraxılası kişi idi, onun dünyadan köçməsi Azərbaycan ədəbiyyatında müsibət yaratdı. Dünən evinə getmişdim, ailəsinin matəm içərisində olması məni kədərləndirdi. Hər kəs Zəlimxan üçün göz yaşı tökür. Bu, onun nə qədər dəyərli insan olduğunu göstərir".

Xalq şairi Zəlimxan Yaqub birinci Fəxri Xiyabanda dəfn olunub.

Allah rəhmət eləsin!

❑ Könül İBRAHİM



# Bakıda qabaritli transformatorlar zavodu açılıb

## Yeni müəssisənin təməli qoyulub

**Yanvarın 11-də prezident İlham Əliyev Bakının Suraxanı rayonunda "ATEF Şirkətlər Qrupu"nun iri qabaritli transformatorlar zavodunun açılışında iştirak edib, yüksək gərginlikli avadanlıqlar istehsalı zavodunun təməlini qoyub.**

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev və "ATEF Şirkətlər Qrupu"nun rəhbəri Talıb Əlixanbəyov şirkətin Əmircan qəsəbəsindəki Bakı yağ transformatorları zavodu, Qaraçuxur qəsəbəsində transformatorlar və elektrotexniki avadanlıqlar istehsal edən zavod, Hövsan qəsəbəsində isə metal konstruksiya zavodu barədə məlumat veriblər. Bildirilib ki, bunlardan başqa, şirkətin layihə-konstruktor bürosu, 3 tikinti-quraşdırma, həmçinin nəqliyyat və mexanikləşdirmə idarələri var. Şirkətin transformatorlar zavodu 2005-ci, metal konstruksiya zavodu isə 2011-ci ildən fəaliyyət göstərir.

Prezident İlham Əliyevə şirkətin Azərbaycanda və xaricdə gördüyü işlər, ixrac imkanları və perspektivləri barədə məlumat verilib.

"ATEF Şirkətlər Qrupu" Bakı mayesiz transformatorlar zavodunun bazasında yaradılıb.

İri qabaritli transformatorlar zavodunun sınaq laboratoriyası müasir səviyyədədir. Buradakı qurğular 2,4 milyon voltadək yüksələ bilən impuls gərginliyi və 700 min voltadək dəyişən cərəyan verə bilir. Bu isə istehsal edilən transformatorların izolyasiyasını yoxlamağa imkan verir. Zavodda azərbaycanlı mütəxəssislər beynəlxalq təcrübəyə əsaslanan intellektual biliklərdən istifadə edirlər.

Prezident İlham Əliyev iri qabaritli transformatorlar zavodunu işə salıb.

Məlumat verilib ki, ümumi sahəsi 15,6 hektar, istehsal sahəsi isə 14 min kvadratmetr olan zavod 3 korpus və 5 istehsal sahəsindən ibarətdir. Müəssisədə iri qabaritli güc transformatorları və reaktorların istehsalı nəzərdə tutulur. Burada həm də müxtəlif növ elektrotexniki avadanlıqlar, açıq və qapalı tipli yarımstansiyalar istehsal ediləcək. Cənubi Qafqazda analoqu olmayan, dünyanın aparıcı şirkətlərinin istehsal etdiyi avadanlıqla təchiz edilmiş zavodda yüksək keyfiyyətli məhsul hazırlamaq üçün bütün şərait var. Burada 300 nəfər işlə təmin edilib.

Zavodun sərgi salonunda şirkətin müəssisələrində istehsal edilən məhsullar barədə məlumat verildi. Zavodlarda müxtəlif təyinatlı və gərginlikli yağ və güc transformatorları, açıq və qapalı tipli yarımstansiyalar, mühafizə və idarəetmə panelləri, elektrotexniki avadanlıqlar, radiatorlar, bloklar, şkaflar, ümumilikdə 200 çeşiddən artıq tam hazır məhsul və hissələr istehsal olunur. Bu məhsullar Kanada, Cənubi Afrika Respublikası, İraq, Bəhreyn, Bolqarıstan, Rusiya, Ukrayna, Moldova, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Gürcüstan və digər ölkələrə ixrac olunur. Üç il ərzində şirkətlər qrupunun zavodları 150 milyon dollarlıq məhsul ixrac edib. Yaxın illərdə isə ixracı 3 dəfə artırmaq üçün xarici ölkələrlə danışıqlar aparılır, müqavilələr imzalanır.

Sonra Prezident İlham Əliyev yüksək gərginlikli avadanlıqlar istehsalı zavodunun təməlini qoyub.

Qeyd edilib ki, zavodun ümumi sahəsi 20 min kvadratmetr olacaq. Müəssisədə müasir avadanlığın quraşdırılması nəzərə tutulur ki, bu da keyfiyyətli və rəqabətə davamlı məhsul əldə etməyə imkan verəcək. Yeni yaradılacaq müəssisənin istehsal gücü illik 3,4 min müxtəlif avadanlıq, o cümlədən daxili və xarici tip eleqaz açarlar, ayırıcılar, paylayıcı qurğular olacaq. Şirkətin zavodlarında orta aylıq əmək haqqı 500 manat olmaqla, 2024 nəfər işlə təmin edilib. Yeni zavodun istifadəyə verilməsindən sonra bu rəqəmin 2500-ə çatdırılması nəzərdə tutulur.

# Müxalifətin Zəlimxan Yaqub "dərdi"...

**Bəzi müxalif düşüncəli şəxslər yanvarın 9-da həyatdan köçən xalq şairi Zəlimxan Yaqubu sosial şəbəkələrdə tənqid atəşinə tutdular. Bir növ Z.Yaqubu ölümündən sonra siyasi mövqeyinə görə "məhşər ayağı"na çəkirlər...**

Hətta iş o yerə çatıb ki, siyasi qurumların rəhbərliyinə daxil olan funksionerlər belə qara piar kampaniyasının iştirakçısına çevriliblər. Ortaya atılan əsas arqument isə mərhum şairin hakimiyyəti, hazırkı iqtidarın keçmiş və indiki rəhbərini mədh edən şeirləridir. Onun 2013-cü ilin mayında Cümhuriyyətimizin banisi Məhəmməd Əmin Rəsulzadəyə həsr etdiyi şeir sanki unudulub. Z.Yaqubun ölümündən sonra "Məhəmməd Əmin kişi" şeirini paylaşanlar isə iddia edirlər ki, həyatının sonlarına yaxın şair bu tərzdə şeir yazmaqla, günahlarını yumaq istəyib. Günahları nədir? Hakimiyyəti tərif etməsi, məlum şəxslərin şəninə şeirlər həsr etməsimi?!

Ümumiyyətlə, Z.Yaqubun tənqidlərə məruz qalması bir məsələni yenidən aktual etdi. Bəziləri "mənim kimi düşünməyənlər düşmənimizdir" siyasətindən hələ də ayılmayıblar. Kiminsə onların rəqibini tərifləməsi bu düşərgə daxilində ən böyük qəbahət sayılır. Partiya fəalları torpağı belə soyumayan mərhum şairi ələ salır, tənqid, hətta dozanı aşaraq təhqir edirlər. Hansı ki, bu adamlar öz liderləri haqda ən fantastik iddialar səsləndirir, partiya sədrlərinə yaltaqlanır və hətta onları bütləşdirirlər. O zaman bir sual meydana çıxır: Zəlimxan Yaqubun kimisə siyasi lider kimi qəbul etməsi nədən qəbahətdir?



**Sabir Rüstəmxanlı:**
"Ona qarşı münasibət tərbiyəsizlikdir"

**VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı Z.Yaqubla bağlı aşağılayıcı məlumatlar paylaşanları "tərbiyəsiz" adlandırdı:** "Azərbaycan müxalifəti ilə xalq arasında uçurum yaradan, müxalifəti xalqın gözündən salan səbəblərdən biri də bu tipli şəxslərin ziyalılarımızın xidmətlərini düzgün qiymətləndirməməsidir. Savadsız, elmdən bixəbər olduqlarına görə kütlə psixologiyası ilə ziyalılara qısqanclıqla yanaşıblar. Bunun üçün də ziyalı ilə müxalifət arasında daim anlaşılmazlıq olub. Eyni amil hakimiyyət daxilində də var. Təəssüflər olsun ki, Azərbaycan ziyalılarının çoxu həm aşağıdan, həm də yuxarıdan daim vurulub. Halbuki bu millət üçün həmin ziyalılar böyük işlər görüblər. Zəlimxan Yaquba qarşı bəlli münasibət tərbiyəsizlikdir. Hər kəsin seçim haqqı var. Kim kimi tərifləyirsə, kiməsə lider gözü ilə baxırsa, kiminsə ünvanına şeirlər həsr edirsə, bu onun şəxsi işidir. Necə olur ki, müxalifəti tərifləyəndə yaxşı olursan, tənqid edəndə pis. Əgər müxalifət millətin halını düşünərsə, təbii ki, mən də istərəm ki, ziyalılar onların yanında olsunlar. Amma kimin-kim olmadığı zamanda, xalq arasında sevilən, böyük işlər görən, özü də ölkəmizdən kənarda olan Borçalının adını qoruyan, yaşadan, həyatdan köçmüş bir şəxs barədə bu tərzdə ifadələr işlətmək tərbiyəsizlikdir. Bu barədə sosial şəbəkələrdə də fikirlərimi ifadə etmişəm. Zəlimxan Yaqub haqqında mövqeyim orada açıq şəkildə görünür".



**Mehriban Vəzir:**
"Ölümümüz qınaqlarımızı bizimlə aparmır..."

**Yazıçı-publisist Mehriban Vəzir tamam fərqli düşünür. O hesab edir ki, hər bir fikrə hörmətlə yanaşmaq lazımdır:** "80-cı illərin sonlarında ölkəmizdə inqilab başlayanda, insanların şüurlarında da inqilab baş verdi. İnsanlar yeni düşüncə ilə dövlətə, rəhbərliyə yanaşmağa başladılar. Tənqidi baxış gücləndi. Bu hal uzun müddət Azərbaycanda davam etdi. 1993-cü ildə hakimiyyət dəyişikliyindən sonra durum tamamilə dəyişdi. Sovet dövründə olan hakimiyyətdəkilərin tərif istəkləri meydana gəldi. Bu dövrdən çıxmış şəxslərin düşüncəsi 80 dərəcədə dəyişmişdi. İnsanlar hakimiyyətdəkilərin tərifini qəbul etmirdilər. Amma həmin vaxt yeni tendensiya yarandı. Rəhbərlikdə olan şəxslərin tərifi kütləvi hal aldı. Sovet dövrünün məşhur yazıçı, şairləri bu prosesin önündə durmağa başladılar. Şüurumuz yenidən əski dövrə qayıtdı. Zəlimxan Yaqub və digər şairlər prosesin önündə durdular. Mən AzTV-də işləmişəm və bu prosesin önündə gedənləri görmüşəm. Prezident Aparatından nələrin tələb olunduğu və Yazıçılar İttifaqının bu tələblərə verdikləri cavabları görmüşəm. Ona görə də düşünürəm ki, kiminsə sözlərindən incimək lazım deyil. Zəlimxan Yaqub dünyasını dəyişib. Onun barəsində məşhur insanlar müsbət yöndə mövqelər bildirirlər. Amma əksini deyənlər də var. Mənim üçün önəmli olan hər iki tərəfin danışmaq hüququnun olmasıdır. Ölümümüz qınaqlarımızı bizimlə aparmır. O, yer üzündə insanların yaddaşlarında qalır. 50 ildən sonra bizi tanımayanlar yaradıcılığımıza baxıb qiymət verəcəklər. Amma şəxsiyyətimizlə tanış olan müasirlərimiz bizə tamam başqa cür qiymət verəcəklər. Deyilənləri anlayışla qəbul etmək lazımdır. Xüsusilə mətbuat qəbul etməlidir ki, insanlar fikirlərini açıq şəkildə söyləməlidir. Azad sözün ağzını qapamaq lazım deyil. Kim Zəlimxan Yaqubun yaradıcılığını mənfi qiymətləndirirsə, danışmaq hüquqi olmalıdır. Eləcə də onu dahi kimi qələmə verənlərin bu hüquqları tanınmalıdır".

❑ Cavanşir ABBASLI

# "Qubad İbadoğlu ilə görüşümüz olmayıb"

## Tural Abbaslı: ""AĞ blok" partiyaya çevrilmək üçün..."



**"AĞ blok"la Azərbaycan Demokratiya və Rifah Hərəkatı (ADR) arasında birgə fəaliyyət göstərməklə bağlı görüşlərin başlandığı barədə xəbərlər yayılıb. ADR rəhbəri Qubad İbadoğlunun Yeni ildə Azərbaycana gəlməsi və burada qaldığı 10 gün müddətində hər iki qurum arasında görüşlərin keçirildiyi bildirilir.**

Yayılan xəbərlərdə o da qeyd olunur ki, hər iki qurum qarşıya məqsəd kimi birləşməyi və gələcəkdə bir partiya adı altında fəaliyyəti göstərməyi qoyub.

Bunun bağlı **"AĞ blok"un təsisçisi Tural Abbaslı** ilə əlaqə saxladıq. O, yayılan məlumatları təkzib etdi: "Qubad bəyin 10 gün Azərbaycanda olduğu müddətdə onunla hər hansı bir əlaqəmiz olmayıb. Nə mən, nə də onun tərəfindən belə bir təşəbbüs göstərilməyib. ADR-lə birləşmək, yaxud birgə fəaliyyətlə bağlı heç bir müzakirə aparılmayıb. Bu istiqamətdə işlər də aparmırıq. Düşünürük ki, ADR istəsə, özləri müraciət edə bilərlər. Qubad İbadoğlu ətrafında cərəyan edən bəzi hadisələr də var. Onun bəzi müsahibələri olub. Belə anlaşılırdı ki, ADR məhdud siyasətlə məşğul olmağa daha çox üstünlük verir. Seçkilərdə fərdi iştirak bunun göstəricisi idi. Amma biz açıq siyasi mübarizə ilə məşğuluq".

**T.Abbaslı "AĞ blok" olaraq, "AĞ" partiya yaratmaq istiqamətində çalışdıqlarını söylədi:** ""AĞ blok" partiyaya çevrilmək üçün bəzi işlər görür, intensiv görüşlər təşkil edirik. Partiya yaratmağın necə ağır proses olduğunun fərqindəyik. Ləng bir proses gedəcək. Hər hansı bir qurumla birləşmək məqsədimiz ola bilməz. Kimsə bizimlə birləşmək istəsə, müraciət edə bilər. İndiki mərhələdə fəaliyyətimizdə partiya quruculuğu ikinci mərhələyə keçib. Buna səbəb günlərdir ki, devalvasiyanın ölkəmizdə tüğyan etməsidir. Hazırda müxalif qurum kimi düşünürük ki, atacağımız hansı addımlar xalq və dövlətə xeyir verə bilər. Müxalifət-iqtidar olmağımızdan asılı olmayaraq, birlikdə bu böhrandan çıxmağın tərəfdarıyıq. Bu istiqamətdə görüşlərimiz olub. Bir çox siyasi partiya liderləri ilə görüşmüşük və bu gün də görüşlərimiz davam edir. Hansı addımların atılmalı olduğu düşüncəsi ilə bu prosesi sürətli aparmaq istəyirik. Bu prosesin sonunda xaos yarana bilər. Bu isə heç kimə sərf etmir. Müxalifət olaraq, biz də üzərimizə düşən bəzi addımları atmalıyıq. Əks təqdirdə, baş verəcək fəsadlarda hakimiyyət qədər müxalifət də məsuliyyət daşıyacaq".

**"AĞ blok"un təsisçisi iqtisadi böhranla bağlı yanvarın sonunda tədbir keçirəcəklərinin anonsunu da verdi:** "Artıq ortada bir təşəbbüs var. Bu təşəbbüs təkcə bizdən gəlməyib. Bəzi siyasi qurumlar və şəxslər tərəfindən irəli sürülüb. Nəzərdə tutulur ki, böyük bir tədbir keçirilsin. Müxalifət adını daşıyan hər bir təşkilat, şəxsin bu tədbirdə iştirakına çalışacağıq. Ekspertlərin də iştirakını nəzərdə tuturuq. Yanvar ayının son 10 günlüyündə belə bir görüş planlaşdırılır. Təşəbbüskarların bu istiqamətdə görüşləri hələ də davam edir. Tədbirin yeri və tarixi məlumdur. Ümumi razılıq olacaqsa, yanvarın 24-də ADP-in zalında bu tipli tədbir olacaq. Əsas hədəfimiz odur ki, müxalif təşkilatların əksəriyyətinin bu görüşdə iştirakına nail olaq. Hamının olması bizim üçün əsasdır. Kim təşəbbüskar, yaxud təşəbbüskarlar oldu, bizim üçün önəmi yoxdur. Əsas məqsəd durum dəyərləndirməsi aparmaq, bu istiqamətdə hakimiyyətə mesajlar vermək, problemdən birlikdə çıxmaqdır. Bu prosesdə İqbal Ağazadə, Pənah Hüseyn iştirak edir. Mirmahmud Mirəlioğlu təşəbbüskarlar sırasındadır. Biz də "AĞ blok" olaraq, həmin diskussiyada iştirak edirik. Görüşün alınması üçün əlimizdən gələni edəcəyik. Ümid edirəm ki, xalqımız üçün faydalı bir tədbir alınacaq".

❑ **Cavanşir ABBASLI**

# "Bunun səbəbi kənarda yaranıb"

# Prezidentin mesajları: icra başçıları əndişədə

## Ötən il keçirilən müşavirələrdən fərqli olaraq dövlət başçısı nazirlərə dəymədi, onları tənqidlərdən qorudu, amma bu o demək deyil ki...; prezidentin çıxışındakı "xarici faktorlar"ı xatırlatmaq nəyə hesablanıb? Xalq manatın devalvasiyasından daha qorxulu olandan -yarana biləcək xaos və siyasi gərginlikdən ehtiyat edir...





**Manatın ötən ilin sonunda və 2016-cı ilin əvvəlində devalvasiyası, qiymətlərin bahalaşması, dolların kursunun isə üzən məzənnədə hətta nəzarətdən çıxması fonunda prezident İlham Əliyevin Nazirlər Kabinetinin toplantısında verəcəyi mesajlara diqqəti artırmışdı. İqtisadçı ekspertlər də son günlər cəmiyyəti ən çox narahat edən "vəziyyətimiz necə olacaq" sualına birmənalı olaraq prezidentin keçirəcəyi müşavirədə aydınlıq gətirəcəyini deyirdilər.**

Yanvarın 10-da İlham Əliyevin Nazirlər Kabinetinin iclasında səsləndirdiyi mesajları dörd qrupa ayırmaq olar. Birincisi, prezident son aylar ikinci dəfə yenə neftin qiyməti ilə bağlı məsələnin siyasi olduğunu dedi. O, manatın ikinci devalvasiyasından sonra da "neftin qiymətinin il ərzində birdən-birə 3 dəfə düşməsi düşünülmüş siyasətdir, bu siyasətin də məqsədi heç kim üçün sirr deyil", deyərək, Qərbin neft amilindən istifadə edərək Rusiyanı çökdürmək istədiyinə açıq işarə vurmuşdu. Son müşavirədə də prezident 2015-ci ildə neftin qiymətinin düşməsinin və manatın devalvasiyaya uğramasının səbəbinin "kənarda yarandığını, neftin qiymətinin azalmasının iqtisadi yox, siyasi amillərlə bağlı olduğunu" bir daha vurğuladı. Aydındır ki, bu mesaj təkcə yaranmış iqtisadi vəziyyətdən gərginləşən əsəbi təbəqəyə yönəlməyib, bu, həm də iqtidarın artan tənqidçilərinə, eləcə də bir-birinin ardınca "antikrizis proqramları" elan edənlərə bir cavabdır. Prezident yaranmış gərginliyin, devalvasiyaya və qiymət artımının səbəbi kimi xarici amilləri göstərir.

"Bunun səbəbi kənarda yaranıb" deməklə İ.Əliyev komandasını qeyri-obyektiv tənqidlərdən qorumağa çalışdı. Prezident son müşavirədə komandanı tərifləmədi, amma xüsusi tənqid də etmədi ki, bu da son aylarda bir ilk idi. Çünki ötən il keçirilən müşavirələrdə dövlət başçısı müxtəlif sahələrə nəzarət edən nazirləri ən sərt şəkildə tənqid etmişdi. Bu dəfə prezident onlara yəqin ki, məqsədli şəkildə dəymədi, onları tənqidlərdən qorudu. Bu da təhlilçilərə görə, yaranmış vəziyyətə adekvatdır. Cəmiyyət indi günahkar axtarışındadır və bu sıra təkcə maliyyə naziri və Mərkəzi Bank sədri ilə məhdudlaşmır.

Prezidentin çıxışında ikinci mühüm amil də xarici faktorla bağlı idi. Ölkə başçısının sözlərinə görə, 2015-ci ildə dünyada siyasi, iqtisadi və hərbi böhran daha da dərinləşib, qanlı toqquşmalar davam edib. İ.Əliyevin çıxışında "Yaxın Şərqdə gedən qanlı toqquşmaları" yada salması "ölkəmiz bu təhlükəli meyllərin müsbət məcraya yönəldilməsi üçün səylərini artıracaq", deməklə Azərbaycandakı siyasi sabitliyə işarə vurmuş oldu. Azərbaycan ictimai rəyində İlham Əliyev hakimiyyətinin ən böyük uğuru siyasi sabitliyin olmasıdır. Müşahidələr göstərir ki, son aylar yaranmış iqtisadi vəziyyətin ağırlığını çiynində hiss edən Azərbaycan vətəndaşı üçün siyasi sabitlik yenə də ön planda qalmaqdadır. Xalq manatın devalvasiyasından daha qorxulu olandan - yarana biləcək xaos və siyasi gərginlikdən ehtiyat edir. Adətən publika qarşısında dünyadakı konfliktlərə detallı toxunmayan prezident təsadüfi deyil ki, bu dəfə Rusiya-Türkiyə və İran-Səudiyyə Ərəbistanı arasında münasibətlərin gərginləşməsindən narahatlığını ifadə etdi, Azərbaycanın regionda sabitləşdirici roluna toxundu.

Üçüncü mühüm məsələ 2016-cı ildə idarəetmədə struktur islahatlarının aparılacağı, çevik idarəetmə mexanizmlərinin yaradılacağı və bununla bağlı yaxın vaxtlarda addımların atılacağı ilə bağlı prezidentin dedikləridir.

Ölkənin neft gəlirlərinin azalması və qlobal iqtisadi böhranın hələ ötən ilin ortalarında ciddi hiss olunması struktur islahatlarını qaçılmaz edib. Məlumdur ki, Nəqliyyat Nazirliyinin strukturunda ciddi dəyişikliklər edilib, biznesi, sahibkarları təhdid altında saxlayan MTN ləğv olunub, xüsusi xidmət orqanlarında ciddi struktur islahatları və ixtisarlar aparılıb. Dövlət başçısı müşavirədə təfərrüatlarını açıqlamasa da, müvafiq islahatlar proqramının artıq hazır olduğunu anons etdi. Ekspertlər bir neçə nazirliyin birləşdirilməsi, bəzi komitələrin ləğvi barədə proqnozlar versə də, bu proqramın detalları hələ ki açıqlanmır. Aydındır ki, bahalaşmadan əziyyət çəkən xalq da hökumət strukturlarında islahatlar tərəfdarıdır və bunu iqtisadi vəziyyətdən çıxış yolu kimi qiymətləndirir.

Prezidentin icra başçıları ilə bağlı göstərişi də diqqətçəkəndir. Rayon əhalisi də iqtisadi krizisdən ciddi əndişədədir.

Dövlət başçısı dotasiya ilə yaşayan rayonların iqtisadi səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlar verdi və görülən işlərlə əlaqədar hər rüb məlumat verilməsi ilə bağlı rayon icra başçıları qarşısında tələb qoydu. Prezident icra başçılarına və rayonlara ayrılmış vəsaiti şəxsi nəzarəti altına aldı. Bundan sonra bəzi hallarda özlərini "kiçik padşah" kimi aparan, dövlət vəsaitini ən müxtəlif üsullarla mənimsəyənlər daha bu əməllərini davam etdirə bilməyəcəklər. Onlar indi 6 aydan və ya ildə bir dəfə deyil, ildə dörd dəfə olmaqla hesabat verməli olacaqlar.

Prezidentin manatın ikinci devalvasiyasından sonra qiymətlərin qalxması nəticəsində yaranan situasiyaya da toxunub, istehlak qiymətlərinə çox ciddi nəzarət etməyin vacibliyini qeyd etməsi də müşavirənin əsas önəmli məsələlərindən biri, bəlkə də birincisidir. Dövlət başçısı əhalini iqtidardan narazı salan bu məsələ ilə bağlı ciddi xəbərdarlıq edib. **"O məhsullar ki, Azərbaycanda istehsal olunur, orada qiymət artımı olmamalıdır. Mənə məlumat da gəlir ki, məzənnə məsələsindən istifadə etmək istəyən natəmiz insanlar, işbazlar sui-istifadə etmək istəyirlər. Buna son qoyulmalıdır. Süni bahalaşmaya son qoyulmalıdır və burada çox ciddi cəza tədbirləri görülməlidir".**

Qiymətlərlə bağlı məsələnin iqtidar üçün nə dərəcədə önəmli olduğunu dövlət başçısının prokurorluq orqanlarına tapşırığı da göstərir. **"Cərimələrlə kifayətlənməməliyik, prokurorluq orqanları çox ciddi məşğul olsun və bu vəziyyətdən öz şəxsi maraqları üçün istifadə etmək istəyənlərə qarşı çox ciddi cəza tədbirləri görülməlidir, mətbuatda da bu işıqlandırılmalıdır ki, buna son qoyulsun".** Bunu prezidentin bir neçə ay əvvəl sahibkarlara qarşı yoxlamalara son qoyulması ilə bağlı qərarı ilə müqayisə edəndə, hətta fərqli mövqelər də yarana bilər. Fəqət, burada söhbət dövlət başçısının "natəmiz insanlar" və "işbazlar" adlandırdığı kateqoriyadan gedir ki, onların cəzalandırılması heç bir halda iş adamının fəaliyyətinə müdaxilə kimi qiymləndirilə bilməz. Görünür, hüquq-mühafizə və digər strukturlar prezidentdən məhz bu tapşırığı gözləyirmişlər və yanvarın 11-dən artıq müvafiq qurumlar hərəkətə keçiblər. Əhali manatın devalvasiyasını neft amillinə görə nisbətən qəbullana bilir, süni qiymət artımı isə birbaşa iqtidarın "ayağına" yazılır.

Nəhayət, 2016-cı ildə pensiya və əməkhaqlarının artırılması ilə bağlı hökumətin təkliflər hazırlaması ilə bağlı prezidentin söylədikləri qeyd olunmalıdır. Düzdür, bəzi ekspertlər hesab edir ki, hökumət devalvasiyadan dərhal sonra maaşların və pensiyaların artmasına qərar verməli idi. Amma belə görünür ki, bu məsələ ilə bağlı da xüsusi bir proqram var və hökumət bunun üzərində hələ ki işləyir.

❑ **"Yeni Müsavat"**

# "Yeni Müsavat" kəmərsıxma aksiyasına başladı - "A" planı dövriyyədə

## Rauf Arifoğlu: "Gələn ayın birindən həftədə 5 dəfəyə keçmək məcburiyyətindəyik"

**Manatın devalvasiyasının ciddi zərbə vurduğu sahələrdən biri də çap mediasıdır. Kağız və çap xərclərinin kəskin artması, yayım sektorundakı problemlər qəzetləri dalana dirəyib. Hazırda media kapitanları çıxış yolları barədə müzakirələr aparır, bəziləri isə müəyyən qərarlar qəbul edib.**



"Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu son bir ildə baş vermiş manatın üçüncü devalvasiyası ilə bağlı yaranmış durumu təhlil etdi və çıxış yolları barədə açıqlama verdi. Baş yazar dedi ki, ölkədə yaranmış vəziyyət yazılı mətbuatın onsuz da böhranlı olan durumunu daha da kritikləşdirib. Müsahibimizin sözlərinə görə, üzləşdiyimiz hal Azərbaycanın çap mediasız qala biləcəyinin siqnallarını verir: "Heç bir strateji qaynaq yoxdur ki, biz nəinki inkişaf edə bilək, ümumiyyətlə, mövcudluğu davam etdirək. Strateji qaynaq adlandıra biləcəyimiz Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondundan stabil aldığımız dəstəkdir. Bu, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan iqtidarının çap mediasına jesti kimi qəbul olunur. Lakin keçən il bu zamanlarla müqayisə olunanda bizim KİV DF-dən layihə əsasında aldığımız dəstək 103 faiz kiçilib. Yəni mən bunu sadələşdirib demək istəyirəm. "Yeni Müsavat" il ərzində KİVDF-dən 120 min manat alır. Keçən il bu zamanlar, yanvarın 12-də 120 min manat 150 min dolların ekvivalenti idi. Bu gün isə həmin məbləğ 80 min dollar məbləğində alıcılıq qabiliyyətinə malikdir. Bu, iki dəfə itki deməkdir".

**R.Arifoğlu dedi ki, bu kiçilmə media quruluşu, xəbər istehsalçısı olaraq onları da kiçildib. Azərbaycan jurnalistlərini ölkənin kasıb təbəqəsi adlandıran baş redaktor onların öz zəhmətləri və yazıları hesabına redaksiyalardan o qədər də yüksək olmayan qonorarlar aldıqlarını, bununla da ölkənin maliyyə-bank sisteminin imkan verdiyi qədər özlərinə həyat düzəni qurduqlarını xatırlatdı:** "Müəyyən kreditlər almışdılar, ipotekalara girmişdilər. Elə jurnalist vardı ki, bir neçə bankdan borc götürərək, ev, maşın, eləcə də evinə başqa əşyalar almışdı. İş yerindən aldığı məvacib hesabına onların ödənişi ilə məşğul idi. Amma devalvasiya bütün bu planları da alt-üst etdi. Jurnalistlərin artıq yaradıcılıq haqda düşünəcək halları qalmayıb. Çünki 2015-ci il ərzində, fevral və dekabr aylarında, onların həyatını dəyişəcək devalvasiya hadisəsi baş verdi. Ona görə də onların aldığı məvacib ödədikləri kreditə ekvivalent deyil və çox kritik vəziyyətə düşüblər".

**Qəzetə, sayta gələn cüzi reklamların manatla ödəndiyini xatırladan R.Arifoğlu eyni zamanda qəzetin də milli valyuta ilə satıldığını vurğuladı. Onun sözlərinə görə, son nəticədə həm satışdan, həm də reklamdan gələn cüzi gəlir ikiqat azaldığı üçün "Yeni Müsavat"da kritik vəziyyət yaranıb. Müsahibimiz çıxış yolu olaraq verdikləri ilkin qərarlardan danışdı:** "İndiki zamanda biz dövriliyi azaldırıq. Əvvəl həftədə 7 dəfə nəşr olunurduqsa, hazırda 6 dəfə nəşr olunuruq. Gələn ayın birindən 5 dəfəyə keçmək məcburiyyətindəyik. Eyni zamanda kənar müəlliflərlə vidalaşmağa qərar vermişik, çünki onlara qonorar ödəmək imkanımız yoxdur. Öncə illərini qəzetə vermiş yazar və əməkdaşlarımızı düşünmək zorundayıq. Eyni zamanda da qəzetin qiymətini 10 qəpik qaldırma siyasətinə getmişik".

**R.Arifoğlu Mətbuat Şurası İdarə Heyəti üzvü olaraq şura sədrindən bu mövzuda bir toplantı keçirməyi xahiş edəcəyini dedi. O, bu cür kritik günlər üçün yaranmış qurumdan sözügedən problemdən çıxış yolu tapmağı istəyəcəyini vurğuladı:** "KİVDF sədri Vüqar Səfərli ilə görüşməyi planlaşdırıram. Onun vasitəsilə biz ölkə prezidentindən xahiş etmək niyyətindəyik ki, media orqanlarına ayrılan vəsait müəyyən qədər qaldırılsın ki, biz onun vasitəsilə bir sıra məsrəfləri qarşılaya bilək. Bildiyiniz kimi, kağızın qiyməti 1 ton üçün 400 manat civarında qalxıb. Nəşriyyat xərcləri 25 faiz yüksəlib. Bu, artıq bizim gücümüzün xaricində olan məsələdir. Bilirik ki, dövlətimizin böyük ehtiyatları var. Və bu ehtiyatlar xarici valyutadadır. Belə olan halda əslində dövlət devalvasiyadan milyardlarla manat qazanıb, ödəmə imkanları daha da genişlənib. Söz mövzusu qəzetlərin ölüm-dirim savaşıdır. Hesab edirik ki, medianın bu cür çöküşü informasiya təhlükəsizliyi baxımından dövlətə də böyük zərərdir. Bunun qarşısını yalnız bizim yox, dövlətin də fədakarlığı almalıdır".

**Baş yazar sonda redaksiya daxilində ixtisarlar aparılacağı ilə bağlı sualı da cavabladı. Dedi ki, bu, qəzet rəhbərliyinin atacağı ən son addım olacaq:** "İnsanlar bizə güvənib, yola çıxıblar. Ailələri, ödənişləri, gündəlik tələbat məsələsi var. Biz yükümüzü yüngülləşdirmək məqsədilə bəzi əməkdaşlarla müqavilə şərti ilə işləməklə çalışacağıq ki, heç bir əməkdaş iş yerini itirməsin. Amma vəziyyət ürəkaçan deyil. Manatın üzən devalvasiyası davam etsə, manat daha da ucuzlaşsa, mən menecer olaraq bu tələtümün öhdəsindən gələ biləcəyimi düşünmürəm. O baxımdan da "B" və "C" planları hazırlamışam. Hazırda qəzet rəhbərliyində qərarlaşdırdığımız "A" variantının tətbiqinə başlamışıq. Bu varianta əsasən, artıq 5 min manata yaxın qənaət fondu formalaşdıra bilmişik. Bu proses davam edəcək. Dövriliyin azaldılması, eyni zamanda redaksiyanın iki iş gününün olmaması - kommunal xərclərin hesabına cüzi də olsa kəmərsıxma əməliyyatına keçməli olacağıq. Biz eyni zamanda əməkdaşlara da o fikri aşılamaq istəyirik ki, vəziyyət kritikdir, hər kəs özünün iş yerinin xilası uğrunda mübarizəyə başlasın".

**R.Arifoğlu bununla paralel olaraq MŞ rəhbərliyi vasitəsilə yazılı KİV-lərə qarşı reklam, elan bölüşdürülməsində bərabərliyin həyata keçirilməsini bir daha gündəmə gətirəcəklərini vurğuladı. Çap mediasının da bu reklam piroqundan pay alması üçün güclərini bir daha səfərbər edəcəklərini vurğulayan baş yazar, əks halda, Azərbaycanın 1875-ci ildə başlayan, böyük bir ənənəsi olan çap mediasını itirə biləcəyinin siqnalını verdi:** "Bizim saytımız var, uğurlu fəaliyyət göstərir. Bizim çox ciddi transfer imkanlarımız var. Amma biz böyük bir ənənəni - "Yeni Müsavat" adlı bir qəzeti, onun 27 illik tarixini itirmək istəmirik".

❑ **Sevinc TELMANQIZI**




# Ölkəyə gələnlər hava limanında niyə yoxlanılır...

## Ədalət Əliyev: "Ucdantutma hamının yoxlanılması, sadəcə, oyunbazlıqdır"

**Təyyarə ilə Azərbaycana gələn sərnişinlər hava limanında çox ciddi şəkildə yoxlanılmalarından şikayət edirlər. Bakı aeroportuna təyyarədən endikdən sonra gələnlərin hamısı müxtəlif aparatlardan keçirilir, yükləri yoxlanılır. İddialar var ki, bu təhlükəsizlik əməkdaşlarının ölkəyə narkotik keçirilməsinin qarşının alınması üçün apardıqları bir əməliyyatdır. Lakin hansısa ölkənin hava limanında yoxlanıldıqdan sonra təyyarəyə minərək ölkəmizin hava limanında enən şəxslərdə narkotik və ya digər qadağan olunmuş maddə olması ehtimalı nə dərəcə ağlabatandır? Bu sual aviasiya ekspertlərini də narahat edir. Bundan əlavə, aviaxidmətlərdən istifadə edən sərnişinlərin hüquqlarını qoruyan beynəlxalq konvensiyalara görə, təyyarədən enən sərnişinlərin yoxlanması düzgündürmü?**

"Yeni Müsavat"ın suallarını cavablandıran aviasiya **eksperti Ədalət Əliyevin** sözlərinə görə, bu, təhlükəsizlik tədbiri deyil, sadəcə olaraq, insanların başına oyun gətirməkdir: "Yalnız ola bilər ki, hansısa konkret siqnallar olsun. O zaman yoxlama həyata keçirilir. Ancaq ucdantutma hamının yoxlanılması, sadəcə, oyunbazlıqdır. Bizim mülki aviasiyanı çökdürmək, hörmətdən salmaq üçün atılan addımlardır. Sistemli şəkildə hamını başdan -ayağa yoxlayırlar və elə edirlər ki, insanlar ümumiyyətlə bu ölkəyə gəlməsin. Mən bunu başqa cür başa düşə bilmərəm.

Hansı ölkədən uçursansa orada insanı başdan-ayağa yoxlayırlar və onun üçün xüsusi rentgen avadanlığı var. Narkotikin yoxlanılması üçün xüsusi avadanlıq var, xüsusi itlər də var ki, onlar çamadanları yoxlayır və tapırlar ki, burada narkotik var və ya yoxdur. Bu, bütün dünyada işləyən üsullardır. Amma sərnişinləri enişdə yoxlamaq düzgün deyil. Bakıya gələnlər hansı hava limanından uçubsa, onu orada yoxlayıblar. Yalnız o halda ola bilər ki, ciddi bir siqnal gələr ki, filankəsdə 5 kiloqram narkotik var, onu yoxlayın. Bu zaman həmin şəxsi yoxlamaq olar. Qalan hamını yoxlamağa nə ehtiyac var".

**Ekspertin verdiyi məlumata görə, beynəlxalq konvensiyalarda qeyd edilir ki, sərnişinlərin təhlükəsiz şəraitdə uçması təmin edilməlidir, yəni təyyarə uçuşa başlayanda sərnişinlər yoxlanmalıdır:** "Uçub sağ-salamat gəlibsə, həmin insanı nə üçün yoxlayırlar. Bütün hava limanlarında yaşıl dəhlizlər var. Əgər sərnişin öz çamadanında heç nə olmadığından əmindirsə, həmin dəhlizdən keçir və heç bir yoxlamaya məruz qalmır. Əgər belə edəcəklərsə, elan etsinlər ki, bütün yaşıl dəhlizləri ləğv edirik, Azərbaycana gələn hər kəs yoxlanacaq. Bu zaman insanlar da işlərini bilər və qərar verərlər ki, ümumiyyətlə Azərbaycana gəlsinlər, yoxsa yox.

Bu hadisələrin hamısı Azərbaycan Hava Yollarının imicinə çox ciddi şəkildə zərbə vurur. Heç bir ölkədə belə hallar yoxdur".

**Məsələ ilə bağlı AZAL-a göndərdiyimiz rəsmi sorğunun cavabında isə sərnişinlərin şikayətlərinin əksinə olaraq bildirildi ki, respublikaya gələnlər yoxlanılmır:** "Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyətinin Aviasiya Təhlükəsizliyi İdarəsi tərəfindən respublikaya gələn şəxslər, onların baqajları və yükləri heç bir şəkildə yoxlanılmır".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 7 (6328) 12 yanvar 2016

# Mühacirlər arasında 30 min avroluq qalmaqal

## Qənimət Zahid nədə ittiham olunur?


Qənimət Zahid

**Bu günlərdə xaricdə yaşayan mühacirlər arasında qalmaqal yaşanıb. İsveçrədə yaşayan mühacir Laçın Məmişov Fransada baş vermiş bir pul yığımı zamanı yaşananları işıqlandırıb. L.Məmişov qeyd edib ki, hər şey Ziyalılar Birliyinin sədri, Milli Şuranın Koordinasiya Şurasının üzvü Eldəniz Quliyevin məhkəmə qaydasında cərimələnməsi və 480 saat ictimai işlərə cəlb olunması haqqında qərar çıxarılmasından sonra baş verib. Sözügedən cərimənin ödənilmə si ilə bağlı E.Quliyevə dəstək aksiyası təşkil olunduğunu yazan L.Məmişov bu aksiyanı xaricdən özünün, Azərbaycandan isə moderator.az saytının əməkdaşı Seymur Əliyevin idarə etdiyini bildirib: “Azərbaycanda, Avropada və bütün dünyada yaşayan azərbaycanlılara çağırış etdik ki, gəlin, bu cəriməni toplayıb ödəyək və ictimai işləri isə bütün ölkələrdə Azərbaycan səfirliyinin qarşısında aksiya şəklində yerinə yetirək. Gedib səfirliyin qarşısını süpürərək, ”Hamımız Eldəniz Quliyevik" transporantlarını da nümayiş etdirək. Həmin çağırışa Milli Şura və müxalifət partiyalarının heç biri qoşulmadı. Yardım edənlər pulu Seymur Əliyevə göndərdilər. Yəni ya bank hesabına, ya da ki, pul köçürmələri vasitəsilə... Həmin ərəfədə mən Azərbaycanda deyildim. Toplanan pullar, ümumiyyətlə, mənim əlimə də dəymədi. Həmin ərəfədə hər toplanan manatın hesabatı yaradılmış xüsusi səhifədə vaxtaşırı paylaşılırdı. Seymur Əliyevdən xahiş etdim ki, bank hesabının dövriyyəsini çıxarıb, nə qədər pul toplanmasının hesabatını mənə göndərsin. Ona görə yox ki, Seymur Əliyevə nəsə bir iddiam var, xeyr... Qənimət Zahid və onun ətrafında olan bir neçə nəfər iddia edir ki, guya Eldəniz müəllimə dəstək aksiyasında pul, facebookda şəffaf siyahıda göstərildiyindən çox toplanıb. Hətta Qənimət Zahid özü belə, 350 avro pul göndəribmiş. Amma həmin pul Eldəniz müəllimə gəlib çatmayıb. Seymur Əliyevə də çatmayıb. Mənim isə ümumiyyətlə, o puldan xəbərim yoxdur. Xahiş edirəm, Qənimət Zahid aydınlıq gətirsin, pulu kimin vasitəsilə hara göndərib? Əgər göndəribsə, bunu öz yaxın ətrafının vasitəsi ilə edib. Demək, pul çatmayıbsa, o zaman oğurluğu özünün pulu göndərdiyi adamlardan görsün və hesabatını da onlardan sorsun. Yox, əgər göndərməyibsə, o zaman bu provokasiyanı etməkdə məqsədi nədir? Hələ üstəlik, Eldəniz müəllimə də deyir ki, “Sizin bildiyinizdən qat-qat çox pul toplanıb”.**

L.Məmişov statusunda həmçinin yazıb ki, Q.Zahidin müəllifliyi ilə E.Quliyevə dəstək aksiyası zamanı 30.000 avro pulun toplanması barədə şayiə də buraxılıb: “Amma niyəsə bizim o puldan xəbərimiz yoxdu?! Qeyd etmək istəyirəm ki, Eldəniz müəllim üçün toplanan pulun içində bir nəfər də olsun, müxalifət liderinin, funksionerinin bir manatı belə, yoxdur. Hansı ki, bu kampaniyanı etmək, dəstəkləmək onların boynunun borcu idi. Bütün ictimaiyyətdən cəmisi 500-600 manat pul toplanmışdı. Hansının ki, siyahısı yaratdığımız eventdə hər gün bir neçə dəfə paylaşılırdı. Yaxşı, bu 30.000 avro haradan çıxdı? Qənimət Zahid bu pula sahiblənməkdə kimi ittiham edir? Seymuru, məni, ya Eldəniz müəllimi..? Bəlkə özünün etdiyi müəmmalı fəaliyyətlər haqqında danışsın? Bəlkə özünün həzm-rabedən keçirdiyi 5 və 6 rəqəmli məbləğlər haqqında xalqa hesabat versin ki, biz də bir görək, o pulları haradan alır?”

**Bu statusun altında isə xeyli müzakirələr gedib. Müzakirəyə qoşulan əksər mühacirlər L.Məmişovdan bu məsələni Q.Zahidlə üzbəüz danışıb, müzakirə etməyi xahiş ediblər. Q.Zahid müzakirələrə qoşulmasa da, E.Quliyev şərh yazaraq bildirib ki, bu kampaniyaya dəstək verənlərin hər birinə təşəkkür edib:** “Sadəcə, özünü Qənimət bəyə yaxın sayan bir nəfər konkret olaraq, bir qədər də əsəbi şəkildə mənə yazdı ki, sizin adınız 30 min avro almaqda hallanır, bu qədər pul sizə çatıbmı? Yazdım ki, xeyir, bu qədər pulun toplanmasından xəbərim yoxdur. Və mənə çatan məbləğə də şükür edirəm. Çox güman ki, Qənimət bəy də belə xəbərləri eşitdiyindən məsələnin mahiyyəti ilə maraqlandı. Mən ona da yazdım ki, həm Laçının, həm də Seymurun hər hansı başqa bir niyyətdə ola biləcəklərini düşünmək belə istəmirəm... Əlqərəz, Laçın bəydən xahiş edirəm ki, bu üzücü polemikaya nöqtə qoysun və Qənimət bəylə görüşüb kölgəli münasibətlərinə aydınlıq gətirsin. Düşünürəm ki, indiki vaxtda belə məsələləri ictimai müzakirəyə çıxartmaq düzgün deyil. Laçın bəy, mümkünsə, lütfən, bu statusu silin”.

❑ **“Yeni Müsavat”**

# “Mütəllibovun partiyaları” adlandırılanlardan VİP sədrinə sərt cavablar

## Əli Əliyev deputat olan partiya sədrlərinin Moskvaya və ya Mütəllibova sevgisi olduğunu bəyan etdi

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev “Yeni Müsavat”ın ötən sayında maraqlı açıqlama vermişdi. Sitat: “Bizim ”Yanukoviç" statusunda olan, 20 il Moskvada gizlənmiş Ayaz Mütəllibovun bugünkü Milli Məclisdə 3 siyasi partiyası yer alıb; həmin partiyalar ASDP, Vəhdət Partiyası və Vətəndaş Birliyi Partiyasıdır". Onun bu açıqlaması adıçəkilən partiyalardan ikisinin sədrinin etirazı ilə qarşılanıb.**

**ASDP sədri, deputat Araz Əlizadə modern.az-a deyib ki, Əli Əliyevi ciddi adam saydığından ondan belə açıqlama gözləmirmiş:** “Əli Əliyevi bu günə kimi ciddi adam bilirdim. Bu cür çıxış etməsini ondan gözləmirdim. Əvvəla, ondan başlayım ki, Tahir Kərimli Xalq Cəbhəsindən gəlib. Əli Əliyev də Xalq Cəbhəsinin yetirməsidir. Mən isə həmişə sosial-demokrat olmaqla yanaşı, Mütəllibova da müxalifətdə olmuşam. Düzü, belə mənasız fikirləri ondan eşitmək mənə təəccüblü gəldi. Araz Əlizadə həmişə xalqın və Araz Əlizadənin adamı olub. Kimlərinsə adamı olmayıb”.

**Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli isə Əli Əliyevin parlamentdə təmsil oluna bilməməsi səbəbindən qarayaxma işləri ilə məşğul olduğunu deyib:** “Bu fikirlər cəfəngiyyatdır. Heç vaxt kiminsə adamı olmamışam. Əli Əliyevin bu cür çıxışı təhqir xarakteri daşıyır. Özü kiminsə adamı olub, mən yox. O, Milli Məclisə seçilmək, deputat olmaqdan ötrü həmişə dəridən-qabıqdan çıxıb. İstəyinə nail olmadığına görə qarayaxma işlərlə məşğuldur. Vaxtilə Ayaz Mütəllibovun yıxılmasında müstəsna rol oynayanlardan biri olmuşam. Təbii, o vaxt Sovet imperiyasına qarşı mübarizə aparırdım. Konkret Mütəllibova qarşı yox. Hər halda, o, o vaxt dövlət rəhbəri idi. İndi Əli Əliyev mənim adımı kiminsə adamı olmaqda necə çəkir?!”

Vətəndaş Birliyi Partiyasının sədri, deputat Sabir Hacıyev isə xarici ölkələrin birində müalicə olunduğundan məsələyə münasibət öyrənmək mümkün olmayıb.

**Araz Əlizadə və Tahir Kərimlinin dediklərinə isə Əli Əliyev “Yeni Müsavat”a açıqlamasında münasibət bildirdi. VİP sədri öncə bəyan etdi ki, heç kimi təhqir etməyib, parlamentin tərkibi və seçim fəlsəfəsi ilə bağlı dedikləri heç bir fərdə, siyasətçiyə və ya partiyaya qarşı deyil:** “Mənim fikirlərim yalnız bu seçim fəlsəfəsinin müəlliflərinə qarşıdır. Hakimiyyətdə kimlərsə, Azərbaycanı dinməzcə Rusiyaya tərəf sürükləməyə çalışır. Bu açıq sezilir. Baxın, rusdilli təhsil altdan necə şəbəkələndirilir, Rusiya universitetlərinin filialları açılır, məişətdə rus dilinin qabarması gözə girir,


Əli Əliyev


Araz Əlizadə


Tahir Kərimli

saytlarımızda rus mətbuatı reklamının həcminə diqqət yetirin. Sadaladıqlarım rusofil siyasətin kiçicik bir hissəsidir.

Son parlament seçkilərinin nəticəsi rusmeylli siyasətin daha bir aşkar nümunəsidir. Hətta illər uzunu etibar etdikləri tərəfləri belə, Qərb simpatiyalı olduqlarına görə “içəri” buraxmadılar. Parlamentə düşmüş həmin partiya sədrlərinin seçilməsindən qəti narahat deyiləm. Onlar olmasa idi, başqalarını yerlərinə təyin edəcəkdilər. Mənim təyinatın xarakterinə etirazım var".

**Ayaz Mütəllibov və üç partiya məsələsinə gəlincə, Ə.Əliyev bildirdi ki, Mütəllibov 1992-ci il 15 may hadisələrindən sonra Azərbaycanı tərk etmiş bir şəxsdir. Əslində ona mütləq neqativ şəxs kimi yanaşmır. Hətta onun rəhbərlikdə olduğu dövrdə görülmüş müsbət işləri də unutmayıb:** “Onun keçmiş metropoliyaya sığınması, Rusiyaya söykənməsi zəifliyinin və siyasi iradəsizliyinin göstəricisidir. Moskva da onun bu çatışmazlığından uzun müddət faydalanıb. AXC-Müsavat və YAP hakimiyyətləri uzun dövr onu Kremldən geri istəyiblər. Lakin Moskva xeyli müddət onu Azərbaycana qarşı destabilləşdirici faktor kimi istifadə edib, necə ki, bu gün Yanukoviçi və Azarovu Ukraynaya qarşı kullanır. Mütəllibovun bu keyfiyyəti-dövlətə qarşı alət olması məndə ikrah doğurur.

Opponentlər haqda isə onu deyə bilərəm ki, mənim Araz Əlizadə ilə şəxsi səviyyədə xüsusi yaxşı, Tahir Kərimli ilə isə kifayət qədər normal münasibətlərim var. Sabir Hacıyevlə isə uzaqdan tanışam. Bir daha xüsusi vurğu ilə qeyd edirəm ki, kimlərsə bu şəxslərin Moskvaya siyasi simpatiyanın təcəssümü olan Mütəllibovla əlaqələrindən yararlanaraq, öz şəxsi məqsədləri üçün istifadə edə bilərlər. Mənim etirazım, Azərbaycanın imperiya boyunduruğuna salınma təhlükəsinədir. Bu şəxslər istəsələr belə, bu addımı atmaq gücündə deyillər. Lakin kimlərsə, onların Moskvaya və ya Mütəllibova sevgisindən yararlana, Qərblə konfrontasiya yaradıb, Rusiyaya tərəf dreyfdə istifadə edə bilərlər.

Onların mənə cavablarına gəldikdə, Araz bəyə təmkin nümayişinə görə təşəkkür edirəm. Cavabdan görünür ki, mənim dediklərimi jurnalistin dilindən eşidib, özü oxumayıb. Tahir bəyə demək istəyirəm ki, mən parlamentə düşmək üçün mübarizə aparmışam. Bu mənim vətəndaş hüququm, partiya sədri kimi görəvimdir. Dəridən-qabıqdan çıxmaq tüpürdüyünü yalamaqdır, vaxtilə təhqir etdiklərini tərifləmək, onlara yaltaqlanmaqdır. O, mənim siyasi davranışımdan bir dənə belə nümunə göstərə bilməz".

❑ **Etìbar SEYİDAĞA**

# “Yaranan vəziyyət özü ilə bərabər müxalifətini yetişdirəcək”

**Ölkədə manatın qiymətinin sürətlə ucuzlaşması, ərzaq və digər əmtəə məhsullarının bahalaşması, iş yerlərinin bağlanması prosesinin getməsi əhalinin yaşayışına ciddi təsir göstərməkdədir. Cəmiyyətdə bir psixoloji gərginlik müşahidə olunur. Bölgələrdə kartəbii etirazların baş qaldırdığı barədə də xəbərlər gəlməkdədir.**

Bəzi ekspertlər Xaçmazda bir kəndin sakinlərinin yol polisini döyməsinin də bu gərginliyin fəsadı olaraq ortaya çıxdığını iddia edilər. Bir çox ekspertlər və siyasətçilər bu durumun heç də ölkə üçün yaxşı perspektiv vəd etmədiyini, müxalifət olmadan da ölkədə spontan etirazların genişlənəcəyi təhlükəsinin olduğunu düşünürlər.

**Bu mövzuda danışan Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bildirdi ki, hökumət böhranın qarşısını almasa, ölkədə müxalifətin iştirakı olmadan sosial etirazların baş qaldırması gözlənilir: “Xatırlayırsınızsa, mən məqalə və müsahibələrimdə həmişə bir şeyi xüsusi vurğulayıram ki, ölkədə artıq sistem böhranı yaşanır. Bu böhran maliyyə-iqtisadi böhranla başladı və artıq hökumət idarəçiliyi böhranı ilə müşayiət olunmaqda, dərinləşməkdədir. Heç şübhəsiz ki, artıq bunun sosial nəticələri üzə çıxmağa başlayıb. Bunun sosial-siyasi nəticələri də olacaq. Sosial-siyasi nəticələr deyərkən sosial etirazlar, spontan etirazların müşayiət olunması və kütləviləşməsini də nəzərdə tuturam. Əgər təxirəsalınmaz antiböhran tədbirləri görülməsə, əhalinin geniş təbəqələrinin maraqları, iş adamlarının maraqları qorunmasa, böhran dərinləşəcək və bunun ciddi sosial nəticələri olacaq, sosial narazılıq artacaq, etiraz dalğası baş qaldıracaq. Belə vəziyyətdə isə iki variant var. Ya müxalifət yenidən təşkil olunmalıdır və çox ciddi bir strategiya ətrafında sistemli iş qurmalı, xalqı yenidən özünə inandırmalıdır. Bu uzun və çətin çəkən prosesdir. Ya da yaranan vəziyyət özü ilə bərabər özünün də müxalifətini yetişdirəcək. Bu, mümkündür ki, ilk dövrdə siyasi partiya halında olmayacaq, vətəndaş hərəkatı kimi olacaq. Bunu prosesin gedişi göstərəcək. Ənənəvi müxalifətin təşkilatçı və iştirakçısı olmadan baş qaldıran sosial etirazların özünə liderlər də yetişdirəcəyi aydındır. Dünya təcrübəsində bu cür hallara çox rast gəlinir”.


**Sülhəddin Əkbər:** “Ölkədə artıq sistem böhranı yaşanır...”

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 7 (6328) 12 yanvar 2016

**Yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə prezidenti mövcud durumdan çıxış yolları ilə bağlı bəzi tapşırıqlar verib.**

# Süni qiymət artımı ilə mübarizə-iqtisadçıların fikirləri toqquşdu

## Əli Məsimli: "Əhaliyə ziyanı aradan qaldırmaqdan ötrü bu anormallığa qarşı adekvat tədbirlər görülməlidir"

## Samir Əliyev: "İnzibati yol çıxış deyil və qısa müddətdə qiymət artımının qarşısını ala bilər"

Rəsmi məlumata görə, dövlət başçısı manatın ikinci devalvasiyasından sonra qiymətlərin qalxması nəticəsində yaranan situasiyaya da toxunub, istehlak qiymətlərinə çox ciddi nəzarət etməyin vacibliyini qeyd edib. Prezident deyib ki, manatın məzənnəsinin dəyişməsi ilə bağlı bəzi işbazlar qiymətləri süni şəkildə qaldırmaq istəyirlər. "O məhsullar ki, Azərbaycanda istehsal olunur, orada qiymət artımı ümumiyyətlə mümkün deyil, olmamalıdır. Mənə məlumat da gəlir ki, məzənnə məsələsindən istifadə etmək istəyən natəmiz insanlar, işbazlar sui-istifadə etmək istəyirlər. Buna son qoyulmalıdır. Süni bahalaşmaya son qoyulmalıdır və burada çox ciddi cəza tədbirləri görülməlidir". **Ölkə başçısı deyib ki, yalnız cərimələrlə kifayətlənmək olmaz:** "Prokurorluq orqanları çox ciddi məşğul olsun və bu vəziyyətdən öz şəxsi maraqları üçün istifadə etmək istəyənlərə qarşı çox ciddi cəza tədbirləri görülməlidir, mətbuatda da bu işıqlandırılmalıdır ki, buna son qoyulsun".

Qeyd edək ki, ötən ilin son aylarında sahibkarlığa maneələrin aradan qaldırılması məqsədilə qanunsuz yoxlamalar ölkə başçısı səviyyəsində qadağan olunmuşdu. Lakin göründüyü kimi, yoxlamaların olmaması şəraitində qiymətlərin süni artımı ilə bağlı problemlər yaranır və bu da yoxlamaların daha ciddi şəkildə gündəmə gəlməsini şərtləndirir. Ancaq bəzi müşahidəçilər hesab edir ki, yoxlamalarla bağlı tapşırıqlar bəzi sui-istifadələrə səbəb ola, prokurorluq və vergi işçilərinin sahibkarlara qarşı basqılarını artıra bilər.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Əli Məsimli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məsələyə ikili münasibət var:** "Bir qisim mütəxəssis belə hesab edir ki, pul da ümumi ekvivalent rolunu oynayan əmtəə olduğundan, onun dəyərindəki dəyişiklik bütün malların qiymətlərində öz əksini tapmalıdır və devalvasiya zamanı bütün qiymətlər qalxmalıdır, əks halda, biznes batar. Burada həqiqət payı olsa da, bunu mütləq mənada bütün mallara şamil etdikdə bu tezis yarımçıq xarakter daşıyır. Eyni zamanda pul dedikdə təkcə dollar yox, həm də ölkə daxilində işlədilən manat başa düşülməlidir. Çünki manat dönərli valyuta olmasa da, hər halda, milli valyuta kimi ölkə daxilində ödəniş vasitəsidir. Digər fikir isə ondan ibarətdir ki, devalvasiya zamanı ölkə daxilində istehsal olunan malların qiyməti qalxmamalıdır. Bu, ilk növbədə xaricdən gətirilən malların qiymətlərində və xaricdən gətirilən xammal əsasında həmin ölkədə istehsal olunan malların qiymətlərində labüd surətdə öz əksini tapır. Amma həmin proses bir müddət avtomatik surətdə ölkə daxilində istehsal olunan mallarda tam özünü göstərmir. Beləliklə, həmin vaxt kəsiyində idxal bahalaşır, ixrac isə ucuzlaşır. Dünya bazarına çıxarası malı olan ölkələr bundan faydalanıb əlavə bazarlar əldə edir və əlavə valyuta qazanır. Amma devalvasiya yerli məhsulların qiymət baxımından müqayisəli rəqabət qabiliyyətindən yalnız 6-7 ay müddətində faydalanmaq şansı yaradır. İstifadə etdin, qazanırsan, etmədin, həmin üstünlük itib gedir. Çünki bir müddətdən sonra ölkə daxilində istehsal olunan malların da qiymətləri xaricdən gətirilən malların qiymətlərinin arxasınca sürünməyə başlayır. Həmin üç amilin ümumi istehlakdakı payları, eləcə də əhalinin alıcılıq qabiliyyəti ümumi qiymət artımının səviyyəsinə müxtəlif cür təsir göstərir. Yəni ümumi istehlakda xaricdən gətirilən malların payı çox olanda, devalvasiya qiymətlərə çox, az olduqda isə az təsir göstərir. Əgər diqqət yetirsək, görərik demək olar ki, iqtisadiyyatı xaosdan ibarət olan ölkələr istisna olmaqla, heç bir ölkədə devalvasiya faizi səviyyəsində inflyasiya olmur. Yəni 10 faiz devalvasiya olubsa, bir malın qiyməti 10 faiz, o biri malın qiyməti 5 faiz, digər bir malın qiyməti isə 1-2 faiz artmaqla və ya heç dəyişməməklə, ümumilikdə ölkə üzrə 3-5 faiz inflyasiya olur".


Əli Məsimli


Samir Əliyev

**Ə.Məsimli qeyd etdi ki, bizdə idxal üzərində monopoliya olduğundan, ölkəmizə gətirilən malların xeyli hissəsi gömrükdə qeydiyyat zamanı fiksə olunan qiymətdən dəfələrlə baha satılır:** "Əgər devalvasiya zamanı 50 faizlik devalvasiyaya müqabil olaraq, əslində devalvasiya qədər bir neçə dəfə baha satılmaq üçün gətirilən malın qiyməti 50 faizlik devalvasiya səviyyəsində əlavə qaldırılanda, əmək haqqı, pensiya, müavinət və digər ödənişlər artmadığı şəraitdə, gəlirlərində heç bir dəyişiklik olmayan əhalinin maddi vəziyyətinə ciddi zərbə olur. Ona görə də bu məsələ ilə əlaqədar iki istiqamətdə işlək mexanizm hazırlayıb həyata keçirmək lazımdır. Bir tərəfdən süni qiymət artımının qarşısının alınmasına yönəlik etibarlı mexanizm hazırlayıb həyata keçirmək lazımdır. Çünki süni qiymət artımının hər faizinə görə Azərbaycan əhalisi ildə 180 milyon, deməli, ümumilikdə milyard manatlarla pul itirir. Eyni zamanda ölkəyə gətirilən malların qiymətlərinin həmin malın bizə gəldiyi, məsələn, Türkiyə, İran, Rusiya və sair ölkələrdəki qiymətlərini tutuşdurub, bu sahədəki süni qiymətləri də aradan qaldırmaq lazımdır. Yəni elmi cəhətdən əsaslandırmaq lazımdır ki, niyə maşları bizdən yüksək olan Türkiyədə, məsələn, 1 dollara satılan mal bizdə 1,3- 1.5 dollara deyil, 2,5-3 dollara, bəzən bundan da baha satılır? Cavab vermək olar ki, bazar iqtisadiyyatıdır və tələb-təklif qanunu işləyir. Məncə, bizdə tələb-təklif qanunu sivil bazar münasibətlərinin meyarlarına uyğun səviyyədə işləmir". **Deputatın fikrincə, tələb-təklif qanunu normal işləyən yerdə monopol qiymətlər kütləvi yox, çox az mal qrupunu əhatə edir:** "Deməli, bu, bazar iqtisadiyyatı yox, "bazar meydanında qiymət karuseli qurulmuş bazar xaosudur" və onun əhaliyə ziyanını aradan qaldırmaqdan ötrü bu anormallığa qarşı adekvat tədbirlər görülməlidir ki, bazar münasibətlərinin 3 fundamental prinsipinə əsaslanan mühit bizdə də yaransın: azad sahibkarlıq, azad rəqabət, azad qiymətlər. Buna əməl olunsa, bizdə də qiymətlər vətəndaşlarımızın cibinə uyğun səviyyədə olar, yerli istehsal inkişaf edər və devalvasiya zamanı ümumi qiymət artımı indiki kimi, bəzi məhsullar istisna olmaqla, kütləvi surətdə 40-60 faiz yox, 10-15 faiz olar. Həmin prinsiplər işləməyə başlasa, yerli malların qiymətləri də xaricdən gətirilən malların qiymətlərinin arxasınca sürünüb indiki kimi kəskin surətdə artmaz və inflyasiya spiralının işə düşməsinə aparmaz. Belə məqbul səviyyədə qiymət artımının əhaliyə mənfi təsirini isə maaşları, pensiyaları və digər ödənişlərin indeksləşdirilməsi yolu ilə neytrallaşdırmaq olar. Ona görə də bu deyilənlərin edilməsi dövlətimiz üçün də, hökumət üçün də, ən əsası isə xalqımız üçün və deməli, böhrandan az itki ilə çıxıb, tərəqqiyə getməyimiz üçün faydalı olar".

**İqtisadçı-ekspert Samir Əliyev isə bildirdi ki, bu gün dövlət qurumları tərəfindən ən çox işlədilən ifadələrdən biri də süni qiymət artımıdır:** "Yeni devalvasiyadan sonra bazarlarda qiymətlərin müxtəlif səviyyədə bahalaşması bir sıra hallarda süni qiymət artımı kimi dəyərləndirilir. Əvvəlcə süni qiymət artımının nədən ibarət olduğu müəyyənləşdirilməlidir, sonra ona qarşı mübarizə aparılmalıdır. Axı qeyri-ərzaq mallarının demək olar ki, hamısı, qeyri-ərzağın müəyyən hissəsi idxal olunur. Deməli, onlar dollar və avro ilə alınır. Manat da həmin valyutalara münasibətdə ucuzlaşanda avtomatik qiymətin artmasını şərtləndirir. Bir mal əgər 1 dollara alınırsa, ölkədə 1,5 dollara satılmalıdır ki, sahibkar həm vergiləri ödəsin, həm işçilərin maaşını versin, həm mənfəət əldə edib biznesini genişləndirsin. Devalvasiyadan qabaq həmin malı 1,6 manata satırdısa, devalvasiyadan sonra məcburdur 2,4 manata satsın. Birincidə malın alış qiyməti 1,05 manata, ikincidə 1,6 manatdır. Yəni devalvasiya malın alış qiymətini artırdı. Sahibkar qiymətləri artırmasa, 1.6 manata xaricdən alıb onu 1,6 manata da satmalıdır. Bəs burda digər xərclər, yaxud qazanc? Bununla biznes çökə bilər".

**S.Əliyevin sözlərinə görə, milli pulun ucuzlaşması bir qayda olaraq ixracatçılara qazanc verir, nəinki idxalçılara:** "1,6 manata satılan malı indi 2,4 manata satsa, süni qiymət artımı hesab olunacaq? Elə sahibkarlar var ki, malı nisyə alır, satır və sonra pulunu ödəyir. Ən böyük zərbə onlara dəyir. Götürək yerli istehsalı. Məsələn, şəkər 100% daxili istehsal hesabına təmin olunur. İlk baxışdan devalvasiyanın ona təsiri olmamalıdır. Ancaq var. Çünki həmin şəkərin xammalı xaricdən gətirilir. Şəkər çuğundurundan tutmuş digər qatqılara qədər hamısı xaricdən gətirilir. Süd istehsalında da həmin vəziyyətdir. Deməli, bu məhsullar da bahalaşmalıdır. Əlbəttə, digərləri kimi 100% yox. Mən razıyam ki, qiymət artımı devalvasiyaya adekvat deyil. Manat 2 dəfə ucuzlaşıb, amma elə mallar var ki, az qala 3-4 dəfə bahalaşıb. Bunlar yolverilməzdir. Ancaq sahibkara necə demək olar ki, sən qiyməti aşağı sal? Qiymət sovet dövründəki kimi dövlət tərəfindən tənzilənmir. Dediyim odur ki, inzibati yol çıxış deyil və qısa müddətdə qiymət artımının qarşısını ala bilər. Amma uzunmüddətli dövrdə mənfi fəsadlar - mal qıtlığı, idxalatçı şirkətlərin azalması və s. - törədə bilər. Dövlət iqtisadi rıçaqlardan istifadə etməlidir. Vergi güzəştləri, strateji məhsullar üçün gömrük rüsumlarının azaldılması və ya müvəqqəti dondurulması kimi addımlar atmalıdır. Ən əsası gömrükdəki inhisar aradan qalxmalıdır. Düşünürəm ki, prokurorluq orqanlarının bu işə müdaxiləsi mənfi nəticələr yaradacaq və problemi daha da dərinləşdirəcək".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 7 (6328) 12 yanvar 2016



# Xalqın (re)animasiyası

Zamin HACI
zaminhaci@gmail.com

**Deyəsən, Azərbaycanda artıq islam inqilabı baş veribdir, uca millətimizin xəbəri yoxdur. Hər halda, bir çox dükanlardan spirtli içki məhsullarının yoxa çıxmasının ayrı səbəbini tapa bilmirəm. Əgər kartla satılacaqsa, niyə satılmır? Əgər vergidən gizlədirlərsə, deməli, qabaqlar bu məhsulların satışından heç bir vergi tutulmurdu? Əcaib ölkədir. Mat qalmalı yerdir. Bir normal dövlət idarəsi də yoxdur ki, sualını verib cavab istəyəsən. İndi neyləyək, pivə almaq üçün də ASAN-xidmətə gedək?**

İslam inqilabı demişkən, haşiyə çıxaraq Nardaran ağsaqqalı Məşədi Natiqin həbsinə də münasibət bildirim. Məşədinin həbsi cəmiyyətin bir çox kəsimində qəzəblə qarşılanıb, çünki ağsaqqal və xəstə adam idi, üstəlik, konflikt yatırdan xarakteri vardı, həmişə danışıq, barışıq tərəfdarı kimi özünü aparırdı. Belə adamları tutmaqla yapistlər əslində radikalları körükləyirlər, qarşıdurma və nifaq, “parçala, hökm sür” siyasəti apardıqlarını isbat edirlər.

Eyni zamanda rejim növbəti dəfə riyakarlıq edir. Öz vətəndaşını ayaqlayıb başqa dövlətdən qorxduğunu dolayısı ilə göstərir. Əks halda, Məşədinin həbsinə səbəb kimi “xarici dövlətin xüsusi xidmət orqanlarına işləmək” ittihamı nəyin əlamətidir? Niyə bu xarici dövlətin adı açıqlanmır? İran deməyə qorxurlar çünki. Bəlkə heç İran deyil, Məşədi Burundi dövlətinə işləyirmiş? Bu qədər saxtakarlıqla hara gedəcəksiniz? Repressiya maşınına tökməyə neft də qalmayıb.

Təzəlikcə bir siyasi məhbusun da başına oxşar oyun açmışdılar. Cibinə nəşə atıb tutmuşdular, elə məhkəmə sənədində “aşkar edilmiş marixuanadan” bəhs olunmuşdu, ancaq həmin qərarın başqa yerində “həmin heroinin mənbəyini müəyyən etmək üçün həbsdə qalmalıdır” yazmışdılar. Sanki adam polisin tutub apardığı müddətdə marixuananı cibindəki laboratoriyada heroinə çevirmişdi.

Nazirlər Kabinetinin toplanıb guya böhrana qarşı müşavirə keçirilməsi isə eynilə iki karın dialoquna bənzəyirdi. Yəqin xatırlayarsınız:

“- Hara gedirsən, bazara?

- Yox, bazara gedirəm.

- Mən də elə bildim bazara gedirsən"

Əks halda, rəhmətlik Fərhad Əliyevdən qalan “Hamı yerli mal alsın, Xeyir vətənə qalsın” tipli şüarlarla devalvasiyanı yola vermək cəhdinin uğursuzluğunu bunlar görmürmü? Deyir, süni qiymət artımı olmaz, yerli məhsullar bahalaşmamalıdır. Nə təhər axı? Hanı o yerli məhsullar? Ölkənin ən böyük ərzaq monopolisti “Azərsun” xaricdən xammal gətirib burda qablaşdırdığını, o üzdən bahalaşmanın qaçılmaz olduğunu keçən ildən etiraf edibsə, qiymətləri qaldırıbsa, bu tamaşa kimin qarnını doydura bilər? Kimi aldadırsınız - hər gün dükana, bazara gedib qiymətlərin saatbasaat qalxdığını görən adamları? Biz axı AzTV ekranında yaşayan cizgi filmi qəhrəmanları deyilik, real adamlarıq. Ətimiz, qanımız var, yeriyirik, yemək yeyirik, geyim alırıq, ocaq yandırırıq. Əgər bu multiklərlə xalqı reanimasiyadan çıxarmaq mümkündürsə, NK-nın adını Pixar qoyun.

Bu yerdə poçtumda yaddan çıxıb qalmış çox köhnə - 2014-cü ilin sentyabrına aid oxucu məktubunu dərc edirəm. Sabir Əlisgəndərov (*ümid edirəm gec dərc etdiyim üçün hörmətli Sabir bəy inciməz*) yazır:

“Mən sizin yazılarınızı neçə illərdir ki, müntəzəm oxuyuram. Müsavatın bugünkü sayındakı yazınız da ürəyimdən xəbər verdi. Təəssüf ki, "boş şeydir" ifadəsini əhali arasında tez-tez eşidirik. Ancaq istəyirəm bu ifadədən daha çox populyar olan “problem yoxdur”u yadınıza salım. Şair Gəray Göyyurd demişkən, Qarabağ boyda dərdi olan, problemləri başından aşan bir ölkənin əhalisi addımbaşı deyir ki, problem yoxdur.

***Yurdun sərvətinin xalqa xeyri yox,***
***Bu var ürəklərə oxdu deyirlər.***
***Problem olsa da Qarabağ boyda***
***Hər kəlmə problem yoxdu deyirlər".***

**ABŞ Helsinki Komissiyasının rəhbəri, ABŞ Konqresinin nümayəndələr Palatasının üzvü Kristofer Smitin Azərbaycan və onun hakimiyyətinə qarşı hazırladığı və Helsinki Komissiyasında qəbul edilən “Azərbaycanda Demokratiya Aktı” adlı qanun layihəsi ətrafında yaşanan ajiotaj bir müddətdir səngiyib. Belə bir təəssürat yaranır ki, sanksiyaları nəzərdə tutan qanun layihəsi gündəmdən çıxarılır və hətta Konqresdə müzakirəyə də çıxarılmaya bilər.**

# Sanksiyalar arxa plana keçir?

## Pentaqonun Konqresə təsir göstərməsi vəziyyəti dəyişə bilər

Siyasi ekspertlər isə bildirir ki, ABŞ-da yeni il tətili hələ də davam edir. Son günlər bu mövzunun arxa plana keçdiyi təəssüratının yaranması həm bununla, həm də ABŞ prezidentindən Azərbaycan prezidentinə Vaşinqtonda keçiriləcək nüvə sammitinə dəvətin göndərilməsi ilə bağlıdır. Sanksiya məsələsinin tətildən sonra yanvarın axırı, fevralda Konqresin komitələrində müzakirəyə çıxarılması gözlənilir.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** isə hesab edir ki, Barak Obamanın İlham Əliyevi nüvə sammitinə dəvət etməsi hadisəsi sanksiya məsələsini arxa plana keçirmir: “Çünki bunlar bir-biri ilə əlaqəli məsələlərə oxşamır. Nəzərə almaq lazımdır ki, "Azərbaycanda demokratiya aktı" adlı qanun layihəsi Helsinki Komissiyasında Barak Obamanın Azərbaycan prezidentinə məlum dəvəti göndərməsindən sonra qəbul edilib".

**İ.Ağazadə onu da qeyd etdi ki, Azərbaycan ABŞ-la müqayisədə çox kiçik ölkə olsa da Vaşinqton üçün çox böyük əhəmiyyətə malik strateji komponentdir. Vaşinqton bu komponentin əldən çıxmasını istəməz:** “Düşünmürəm ki, Azərbaycan ABŞ-la münasibətləri o səviyyə çatdırar ki, adekvat addımlar atılmış olsun. Azərbaycan regionda marağı olan ölkələr, xüsusilə ABŞ üçün strateji əhəmiyyət daşıyan bir ölkədir. Azərbaycan Rusiya və İranın arasında olan elə bir strateji nöqtədir ki, bu məsələdə demokratiyanın sərhədinin cızılması və yeni dünya düzənində tutacağı yer çox mühümdür. Buna görə də Azərbaycandan ABŞ-ın imtina etməsi və ya Azərbaycanı proseslərdən sıxışdırması o qədər rahat deyil. Amma hər halda, Azərbaycan tərəfinə irəli sürülən tələblər də üzərindən vaz keçiləcək tələblər deyil. Çünki bu elə məsələdir ki, həm də dəyərlərə və prinsiplərə sadiqlik məsələsidir. Hesab edirəm ki, Azərbaycan hökuməti dil tapmalıdır, dövlətin və Azərbaycan xalqının ziyan görməsinə imkan verməməlidir. Mən arzulayardım ki, məsələnin sanksiyalarla yekunlaşmaması üçün dil tapılsın. Bir neçə gündən sonra bilinəcək ki, proseslər hansı istiqamətə gedəcək”.



Bir çox siyasətçilər isə Azərbaycanın Pentaqon üçün xüsusi önəm daşıdığına diqqəti cəlb edirlər. Qeyd edilir ki, təkcə Azərbaycanın üzərindən Pentaqonun təyyarələrinin gediş-gəlişi faktı Azərbaycanın Pentaqon üçün necə ciddi komponent olduğunu söyləmək üçün yetərlidir. Pentaqonun Ağ Evə, ABŞ Konqresinə təsir imkanları var. Bu baxımdan, Pentaqon Azərbaycan kimi mühüm komponentdən məhrum olmamaq üçün Konqresin Azərbaycana qarşı sanksiyalar qanununu qəbul etməsinin qarşısını almağa çalışa bilər.

Xatırladaq ki, sözügedən qanun layihəsi Azərbaycan hökumətinin yüksək vəzifəli üzvlərinə ABŞ vizası almaq qadağasının qoyulmasını, onların biznes əlaqələrindən əhəmiyyətli dərəcədə gəlir əldə edən şəxslərə, hökumətin təhlükəsizlik və ədliyyə orqanlarının nümayəndələrinə viza qadağalarının qoyulmasını nəzərdə tutmaqla yanaşı, maliyyə sanksiyalarının, Azərbaycanla iqtisadi əlaqələrin kəsilməsini nəzərdə tutur. Bəzi siyasətçilərin fikrincə, 14 maddədən ibarət bu qanun layihəsinin 80 faizi Azərbaycan xalqına, 20 faizi birbaşa hakimiyyətə qarşıdır.

❑ **Etibar SEYİDAĞA**

# İranla Səudiyyə Ərəbistanı arasında müharibə təhlükəsi...

## Ekspertlər bildirirlər ki, birbaşa olmasa da, bir çox ölkələrin qatıldığı savaş mütləqdir...

**İranla Səudiyyə Ərəbistanı arasında yanvarın 2-dən etibarən başlayan gərginlik yüksək həddədir. Şiələrin lideri şeyx Nimr ən-Nimrin edamı ilə hər iki ölkə arasında başlayan narazılıq regionun digər müsəlman ölkələrinə də sıçrayıb. Üstəlik, İranın Yəməndə yerləşən səfirliyinin Səudiyyə Ərəbistanının raketləri tərəfindən vurulduğunu bəyan etməsi vəziyyəti daha da kritikləşdirib.**




İranın Xarici İşlər Nazirliyindən verilən açıqlamada Səudiyyə Ərəbistanından atılan raketlərlə Yəməndə yerləşən səfirliklərin bilərəkdən vurulduğu və səfirliyin işçilərinin yaralandığı bildirilib. Xarici İşlər Nazirliyinin sözçüsü Hüseyn Cabir Ənsari hadisənin nə zaman baş verməsi barəsində məlumat verməsə də, yaralıların həyatının riskdə olmasına görə Səudiyyə Ərəbistanının məsuliyyət daşıdığını qeyd edib.

Səudiyyə Ərəbistanının müdafiə naziri isə ölkəsi ilə İran arasında baş verə biləcək müharibənin bölgədə böyük bir fəlakətin başlanğıcı olacağını vurğulayıb. Müdafiə naziri Şahzadə Məhəmməd ibn Salman ötən həftə Səudiyyə Ərəbistanında şiə din adamı Nimr Baqir əl Nimr ilə yanaşı, 47 məhkumun edam edilməsi və İrandakı Səudiyyə səfirliyinə edilən hücumlardan sonra iki ölkə arasında yaşanan diplomatik gərginlikdən danışıb. Nazir “Economist” jurnalına verdiyi müsahibədə “İki ölkə arasında birbaşa müharibə ola bilərmi” sualını cavablandırarkən bunları deyib: “Biz bunu planlaşdırmırıq və belə bir hadisəni arzulamırıq. İki ölkə arasında müharibənin olması üçün səy göstərən varsa, o şəxsin ağlı başında deyil”. Bunun ardından Şahzadə Məhəmməd İranla müharibə ehtimalının olmadığını vurğulayıb: “Səudiyyə Ərəbistanı ilə İran arasındakı bir döyüş, bölgədə böyük bir fəlakətin başlanğıcı olar. Belə bir döyüşə qətiyyən icazə verməyəcəyik”.

**İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif isə BMT-nin Suriya münaqişəsi üzrə xüsusi nümayəndəsi Staffan de Mistura ilə görüşü zamanı deyib ki, Suriya münaqişəsinin həlli istiqamətində Səudiyyə Ərəbistanının mənfi addımlarına imkan verilməyəcək.** “İran hər zaman regional böhranların həllində konstruktiv mövqe tutub. Biz Səudiyyə Ərəbistanına Suriya probleminin həllindəki neqativ addımlarına imkan verməyəcəyik”,- deyə Zərif bildirib. BMT nümayəndəsi görüş zamanı İranın Suriya probleminin həlli istiqamətindəki rolunu təqdir edib.

**Ekspertlər isə bildirirlər ki, indiki halda İranla Səudiyyə Ərəbistanı arasında müharibənin başlanması o qədər də gözlənilən deyil. Ekspert Ərəstun Oruclu musavat.com-a açıqlamasında bildirib ki, səfirliyin vurulması xəbərləri təsdiqini taparsa, vəziyyət ciddi olacaq:** “İsbat olunarsa ki, səfirliyi Səudiyyə Ərəbistanının silahlı qüvvələri vurub, bu, artıq qalmaqalın bir qədər də böyüməsi deməkdir. Amma hökmən deyil ki, buna görə müharibə başlasın. Adətən bu tip hadisələr müharibə başlamaq üçün bəhanə kimi də istifadə oluna bilər, səbəb kimi də. Adətən deyək ki, səbəb başqa olur. Belə bir istək varsa, müharibə qərarı alınarsa, bu faktdan istifadə edə bilərlər. Amma mən İranın hazırda müharibəyə getmək istəyini görmürəm. Düşünmürəm ki, İran müharibəyə getmək istəsin”.

Ekspert Natiq Miri isə musavat.com-a bildirib ki, İran müharibədə tərəfdaşlarının kimlər olacağını dəqiqləşdirməyib, bu səbəbdən müharibə başlamaya bilər: “Nəzərə almaq lazımdır ki, İran Səudiyyə Ərəbistanı ilə hər hansı savaş başladığı təqdirdə, onun Suriyadakı müttəfiqi Rusiyanın birmənalı olaraq İranı müdafiə edəcəyindən əmin deyil. Və Rusiyanın da bu prosesə qatılması o qədər də gözlənilmir. Çünki Rusiya bu prosesə qatıldığı təqdirdə, Suriyada gedən proseslərdə mövqeləri zəifləmiş duruma düşəcək. Ona görə də İran üçün bu savaşı başlatmağa bir çox çəkindirici amillər var. Bundan başqa, İran Hörmüz boğazına da iddia edir və bu Hörmüz boğazına tək hüququn yalnız İrana məxsus olduğunu vurğulayır. Ancaq bütün bu iddialara rəğmən, bilirsiniz ki, həmin boğazda ABŞ-ın altıncı təyyarədaşıyan donanması, səbəb kimi yerləşib. Bu da İran tərəfindən çəkindirici məqamdır. Ona görə düşünmürəm ki, bu məsələ savaş səviyyəsinə gəlsin çıxsın. Ancaq savaş olacaq. Suriyada və Yəməndə Səudiyyə Ərəbistanının və İranın dəstəklədiyi güclər tərəfindən savaş yürüdüləcək. Ancaq Səudiyyə Ərəbistanı və İran arasında savaş olmayacaq”.

❑ **Röya RƏFİYEVA**

# Rusiyadan ermənilərə “tərs sillə” effektli zərbə - tanınma olmayacaq

## Saxta soyqırımı inkara görə cəza nəzərdə tutan qanunun qəbulu ehtimalı günbəgün azalır; Kreml ermənilərə görə Ankara ilə bütün körpüləri yandırmayacaq; azı 4 səbəb var...

**Ötən il noyabrın 24-də “Su 24" təyyarəsinin vurulması ilə Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi erməni məsələsini də gündəmə gətirdi, işğalçı ölkəni sevindirdi. Xəbər verildiyi kimi, saxta ”erməni soyqırımı"nın inkarına görə məsuliyyət nəzərdə tutan qanun layihəsi Türkiyə əleyhinə siyasi şantaj aktı kimi elə həmin ay Dövlət Dumasına təqdim edilib.**

Sənədin müəllifi “Ədalətli Rusiya” fraksiyasıdır. O da bəllidir k, bugünlərdə Rusiyadakı azərbaycanlı diasporun 30-a qədər tanınmış siması Dövlət Dumasının spikeri Sergey Narışkinə məktub göndərərək parlamenti həmin qanun layihəsinin müzakirəyə çıxarmaqdan çəkinməyə çağırıb. Eyni zamanda məlum olub ki, azərbaycanlı diaspor təşkilatlarının rəhbərləri məktub-müraciəti imzalayanlara təzyiqlər göstərib.

Bu arada azərbaycanlı milyarder və ictimai-siyasi xadim Fərhad Əhmədov da spiker Narışkinə məktub yazaraq, onu saxta məsələnin inkarına görə cinayət məsuliyyətini nəzərdə tutan qanun layihəsinin qəbulunu əngəlləməyə səsləyib. Məktubun virtualaz.org saytının redaksiyasına göndərilmiş surətində deyilir ki, əgər belə bir qanun layihəsi qəbul edilsə, Fərhad Əhmədov Rusiya vətəndaşlığından çıxacaq.

Bəs bu ehtimal nə dərəcədə güclüdür, sənədin Dumadan keçməsi üçün münbit siyasi zəminin yarandığını söyləmək mümkünmü?

Cavaba keçməzdən öncə bəzi yeni və qiymətli detalları qeyd etməyə dəyər. Məsələn, rusiyalı tanınmış hərbi ekspert Vladimir Yevseyev iki gün öncə erməni saytına müsahibəsində Türkiyə ilə Rusiya arasında gərginliyin hələ iki il sürəcəyini desə də, saxta erməni soyqırımını inkara görə cəza nəzərdə tutan qanun layihəsinin Dövlət Dumasından keçəcəyinə inanmadığını söyləyib. Politoloq, üstəlik, son iki ayda erməni mətbuatında Ağrıdağın (ermənilər ona “Ararat” deyir-red.) Türkiyə tərkibində qalmasını nəzərdə tutan 1921-ci il tarixli Moskva müqaviləsinin ləğvini də istisna edərək, erməniləri ikiqat məyus edib.

Öz növbəsində rus Pravoslav Kilsəsinin rəhbəri patriarx Kiril “erməni soyqırımı”nı inkar edən acılama verib. Belə ki, “Rossiya1" kanalında məşhur aparıcı Dmitri Kiselyova müsahibəsində o, Osmanlı imperiyasında olan xristian azlıqlarının məhv edilmədiyini bəyan edib və bununla da faktiki, Türkiyənin məsələdə mövqeyini müdafiə edib.

Yaxın Şərqdə xristianların vəziyyəti, xristianlar və müsəlmanlar arasındakı münasibətlərdən danışan patriarx Suriya, İraq və Yaxın Şərqin digər ölkələrində xristianların vəziyyətinin hazırda son dərəcə mürəkkəb olduğunu bildirib və qeyd edib ki, İslam dünyasında hazırkı hadisələrə bənzər



proseslər tarixdə heç vaxt baş verməyib. O, nümunə olaraq Osmanlı İmperiyasını göstərib. Sitat: “Məsələn, Osmanlı imperiyasında da xristian azlıqlar olub. Amma onları heç kim məhv etməyib". Bu, artıq erməni iddialarını əməlli-başlı inkar eləmək, qəzəbləndirməkdir.

Yada salaq ki, Rusiya Dövlət Duması 1995-ci ildə - saxta iddianın 80-ci ildönümündə Osmanlı İmperiyasında hadisələrlə bağlı ermənilərin iddialarını “soyqırım” kimi tanıyan bəyanat qəbul edib. Lakin dövlət səviyyəsində bundan uzağa gedilməyib, tanınma hüquqi normativ halına salınmayıb. İndi isə bir qrup deputat “Su-24" insidentindən və prezident Putinin məsələ ilə bağlı məlum ovqatından istifadə edərək Türkiyəyə pislik eləmək üçün belə bir təşəbbüslə çıxış edib. Ancaq bu təşəbbüsün fiasko olacağını indidən söyləmək olar. Bir neçə səbəbdən.

**Əvvəla,** Moskva-Ankara münasibətlərindəki gərginliyin pik nöqtəsi arxada qalıb və Türkiyənin Rusiya üçün nə dərəcədə önəmli ölkə olması qətiləşib. Bunu Moskva rəsmilərinin, ölkənin iqtisadi-energetik sferasına məsul olan yüksək çinli şəxslərin barışıq xarakterli son açıqlamalarından aydınca görmək olar.

**İkincisi,** belə bir sənədin qəbulu Türkiyə ilə diplomatik əlaqələrin kəsilməsi ilə yanaşı, tərəfdaş Azərbaycanla da münasibətlərin pisləşməsinə gətirərdi ki, hazırda bu, Kremlə lazım deyil.

**Üçüncüsü,** “Ədalətli Rusiya” Dövlət Dumasında həlledici səs üstünlüyünə malik deyil. Bu qəbildən qanun layihələrinin qəbulu üçünsə çoxluqda olan iqtidar fraksiyasının - “Vahid Rusiya”çıların dəstəyi mütləqdir. Aydın məsələdir ki, “Vahid Rusiya” lazım gəlsəydi, özü belə bir təşəbbüslə çıxış edirdi. Etməyibsə, demək, buna Kremldə lüzum görməyiblər.

Nəhayət, dördüncüsü, ictimai rəy deyilən amil də var və o da artıq ermənilərin əleyhinədir. Hər necə olmasa, QMİ sədri Hacı Allahşükür Paşazadə ilə də isti münasibətlərdə olan patriarx Kiril Rusiya cəmiyyətində sanballı nüfuza və sözə malikdir və onun mövqeyi ciddiyə alınmaya bilməz. Eləcə də ölkənin ekspert daireləri belə bir sənədi mümkün və ölkəyə faydalı saymırlar.

Bir sözlə, Rusiya ermənilərə görə Türkiyə ilə körpüləri yandırmayacaq. Bunu indi əminliklə söyləməklə yanaşı, həmişə Türkiyəyə qarşı maşa rolu oynamağa razı olmuş ermənilərə “tərs sillə” də hesab eləmək olar.

❑ **Siyasət şöbəsi**

# Rəsmi Bakının vasitəçilik təklifi niyə qəbul edilmədi?

## Ekspert: “Türkiyə-Rusiya münasibətlərində geriyə yol görünmür”

**“Keçən il Rusiya və Türkiyə münasibətləri gərginləşib. Hər iki ölkə Azərbaycanla yaxın qonşudur və vəziyyət arzuedilən deyil”. Bu fikirləri Azərbaycan prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iclasında deyib.**

Xatırladaq ki, iki ölkə arasında təyyarə qalmaqalının yaşanmasının ardından dövlət başçısı İlham Əliyev münasibətlərin normallaşması üçün Azərbayanın vasitəçiliyə hazır olduğunu bildirmişdi. Lakin bu təklif qonşu dövlətlər tərəfindən dəyərləndirilmədi. Hazırda münasibətlər kəskinləşməkdə davm edir və Rusiya tərəfi aqressiyasını nümayiş etdirmək üçün hər cür yola əl atır.

**Politoloq Elxan Şahinoğlu** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, artıq iki dövlət arasında münasibətlərin düzəlməsi çətin görünür: “Münasibətlər kəskinləşəndən sonra Türkiyə baş naziri Əhməd Davudoğlu Bakıya səfər etdi və bu zaman dövlət başçısı İlham Əliyev o məlum fikri səsləndirdi ki, Azərbaycan iki ölkə arasında vasitəçi ola bilər. Lakin təəssüf ki, Rusiya bu təklifə isti yanaşmadı. Türkiyə tərəfi isə Azərbaycanın vasitəçiliyini qəbul edirdi”.

**E.Şahinoğlu onu da vurğuladı ki, artıq vasitəçilik təklif etmək üçün gecdir:** “Rusiya münasibətləri gərginləşdirən o qədər addım atdı ki, artıq vasitəçi də bir şey edə bilməz. İlham Əliyevin çıxışında o məqam var idi ki, Rusiya-Türkiyə münasibətlərinin korlanması Azərbaycanı narahat edir. Çünki hər iki dövlətlə normal münasibətlərimiz var. Əslində Rusiya ilə qonşuluq münasibətlərimiz varsa, Türkiyə Azərbaycanın müttəfiqidir. İlham Əliyev bu fikri Əhməd Davudoğlu ilə görüşdə açıq-aşkar dedi ki, Azərbaycan Türkiyənin yanındadır, Türkiyəni dəstəkləyir və dəstəkləyəcək. Bu isə o deməkdir ki, Azərbaycan Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsində öz seçimini edib. Düzdür,




Azərbaycan Rusiya ilə münasibətlərin korlanmasını istəmir, ancaq Türkiyəyə dəstəkdən də əl çəkməyəcək”.

Putinin yürütdüyü aqressiv siyasətin səbəbində gəlincə, E. Şahinoğlu qeyd etdi ki, Rusiya Türkiyədən çox ciddi bir sillə aldı və bunun intiqamını almağa çalışır: “Rusiya təyyarəsinin vurulması Putinin planlarına zidd idi. Putin Amerikaya, Avropaya meydan oxuduğu bir vaxtda Türkiyədən öz düşüncəsinə görə zərbə aldı. Amma Putin onu düşünmədi ki, Suriyaya müdaxilə edəndə, Türkiyə sərhədini pozanda bunun bir cavabı olmalı idi. Putin düşünürdü ki, Türkiyə bunu həzm edəcək. Ancaq Türkiyə böyük dövlətdir, regionda öz maraqları var və Ərdoğan da haqlı olaraq bugünlərdə Putinə deyib ki, siz guya legitim olmayan Suriya hökumətinin dəvəti ilə gəlib orada İŞİD mövqelərini bombalayırsınız. Ancaq İŞİD mövqeləri bombalanmır, başqa dinc sakinlərin mövqeləri bombalanır. Bir də əgər hər ölkənin dəvəti ilə gedirdinizsə, nə Gürcüstan ordusu, nə də Ukrayna ordusu Rusiyanı çağırmamışdı. Lakin Putin oraya müdaxilə etdi. Putinin bugünki siyasəti elədir ki, heç kimlə hesablaşmamaq, ancaq öz bildiyini həyata keçirmək və nəticələri ilə də üzləşmək.

Təsəvvür edin ki, Rusiya Ukraynanın işğalına görə böyük sanksiyalarla üz-üzə qalıb. Neftin qiymətinin düşməsi də əslində əsas səbəbi Krımın ilhaqıdır. Amerika o planı işə saldı ki, Rusiyanı zəiflətmək üçün mütləq neftin qiymətləri aşağı salınmalıdır. İlham Əliyev də vurğulayır ki, bunun siyasi səbəbələri var və bundan da biz əziyyət çəkirik. Ölkə başçısı ad çəkməsə də Amerika ilə Rusiya arasında gedən rəqabəti deyir. Bunun səbəbi isə Rusiyanın Ukraynaya medaxiləsi və Krımın işğalıdır. Əgər bunlar olmasaydı, bəlkə də neftin qiyməti indi 100-120 dollar idi və biz də bugünkü təlatümlərlə üzləşməzdik”.

❑ **Nərgiz LİFTİYEVA**



## Rusiya Ermənistan-Türkiyə sərhədinə müasir silah yerləşdirdi

Rusiya Ermənistanda yerləşən 102-ci hərbi bazasını müasir silahlarla gücləndirməkdə davam edir.

Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, bazaya “Taxion” pilotsuz uçuş aparatları daxil olub. 40 kilometr məsafəyə qədər ərazidə əlverişsiz hava şəraitində belə, uça bilən “Taxion” kəşfiyyat məlumatları toplamağa qadirdir.

Rusiya Cənub Hərbi Dairəsinin məlumatına görə, hazırda yeni aparatların Türkiyə ilə sərhəddə uçuş sınaqları keçirilir.

Bundan əvvəl Rusiya 102-ci hərbi bazasının aviasiya hissələrini 13 döyüş və nəqliyyat vertolyotu ilə gücləndirmişdi.

YENİ MÜSAVAT
N 7 (6328) 12 yanvar 2016

**Sumqayıtda son aylar başlanmış abadlıq işləri ciddi maraq və müzakirələrə səbəb olub. Məlumatlara görə, bu şəhərə yeni icra başçısı təyin olunmuş Zakir Fərəcov təkcə bununla kifayətlənmək niyyətində deyil. O, Sumqayıtın küçə və prospektlərini, park və meydanlarını sovet dövründəki vəziyyətinə qaytarmaq istəyir. Şəhərin mərkəzi küçələri daxil olmaqla, bəzi ərazilərdə, şəhərin baş planına uyğun olmayan və memarlıq qaydalarını kobud şəkildə pozan, magistral qaz, su, kanalizasiya borularının və telekommunikasiya xətlərinin üzərində tikilmiş bir çox qanunsuz tikilən obyektlər fəaliyyət göstərir.**


Nizami İskəndərov


Zakir Fərəcov


Sumqayıt Mərkəzi Univermağının sovet dövründəki görünüşü


Sumqayıt univermağının qarşısının indiki halı - yol kəsilib

# Sumqayıt oliqarxları Zakir Fərəcova qarşı

## Yeni icra başçısının şəhəri abadlaşdırmaq planı yerli qruplaşmanın müqaviməti ilə üzləşib; prezidentdən ciddi dəstəyi olan Fərəcov ona qarşı cəbhə açmış mafiyanı zərərsizləşdirmək üçün hərəkətə keçib



İsgəndərovların qanunsuz tikdirdiyi ticarət mərkəzi


Corat yolu - qanunsuz hasarlar sökülür

Sumqayıtda aparılan yenidənqurma işləri haqda mətbuatda getmiş məlumatlara görə, yeni İH başçısı şəhərin görünüşündə də dəyişikliklər etməyə start verib.

Hazırda şəhərdə gedən tikinti-quruculuq işləri ilə tanış olmaq üçün Sumqayıta getdik. İşlərin başlanması şəhərin girəcəyindən hiss olunur. Belə ki, Sumqayıtın əsas girişində avtomobil yolu hər iki tərəfdən genişləndirilib. Sülh küçəsi adlanan bu yol bulvardakı göyərçin abidəsinə kimi uzanır. Amma şəhərin içinə doğru sağ və sol tərəflərdə dükanlar, iaşə obyektləri tikilib. Deyilənə görə, əksəriyyəti də qanunsuzdur. Bu obyektləri sökmək və sahiblərinə kompensasiya ödəmək ciddi vəsait tələb edir.

Bu işləri sadə sumqayıtlılar maraqla seyr edir. Xalq şəhərin mərkəzində geniş yer tutan və Sumqayıtın oliqarxlarına məxsus obyektlərin - iri ticarət mərkəzlərinin, bazarın köhnə vəziyyətinə qaytarılmasını istəyir.

**Xalqın bu istəyi səbəbsiz deyil. Əməkdaşımızla söhbət zamanı sakinlər deyiblər ki, "Univermaq Zaman" kimi tanınan Zaman İskəndərov, onun oğlu Nizami İskəndərov, həmçinin "Karvan" ticarət mərkəzinin müdiri "Bazarkom Ağamirzə" ləqəbli Ağamirzə Əhmədov uzun illərdir Sumqayıtı işğal ediblər.**

"İndiyədək hər üç şəxs və onların ətrafı haqda mətbuatda dəfələrlə yazılar dərc olunub. Həmin yazılarda faktlarla bu adamların qanunsuz əməlləri sadalanıb. İsgəndərovlarla yanaşı Ağamirzə Əhmədov da bu şəhərdən indiyədək milyardlar qazanıb. Bu qədər var-dövlət sahibi olmalarına rəğmən, şəhər üçün bir xeyirxah iş görməyiblər. Onların ən yaxşı işi camaatın hərəkət etdiyi yolu, dincəldiyi parkları, avtomobilini saxladığı dayanacaqları zəbt edib yerində dükan-bazar tikmək olub" - deyə, "Yeni Müsavat"ın əməkdaşına Sumqayıt sakinləri giley ediblər.

**Onların sözlərinə görə, hazırda şəhərdə aparılan tikinti-quruculuq işlərinə nə ata-oğul İsgəndərovlar dəstək verir, nə də Ağamirzə Əhmədov:** "Bilmirəm Zakir Fərəcov nə düşünür, bu adamların qanunsuz əməlləri ilə bağlı nə kimi tədbir görəcək, ümumiyyətlə, görə biləcəkmi? Amma xalq çox istəyir ki, həmin adamlar yığdığı milyardlardan Sumqayıt və onun kasıb təbəqələri üçün nəsə etsin".

Sakinlər əməkdaşlarımıza bildirib ki, "Cavid" TM-in ərazisi əvvəllər maşın dayanacağı olub. İndi həmin dayanacağın bərpa olunacağı haqda söz-söhbət dolaşır. Bunun üçün isə "Cavid" ticarət mərkəzinin sökülməsi labüddür. Bizimlə söhbət edən şəhər sakinləri dedilər ki, sovet dövründə Sumqayıt Mərkəzi Univermağının qarşısı avtomobil dayanacağı olub. 90-cı illərin əvvəllərində Zaman İsgəndərov müdiri olduğu univermağın qarşısında yarmarka üçün icazə alıb. Yarmarka da müvəqqəti fəaliyyət növü sayılır. Yerli sakinlər bildirir ki, sonralar onun oğlu Nizami İsgəndərov orda oğlunun adına (Zaman İsgəndərovun nəvəsinin-red.) geniş ticarət mərkəzi tikdirib. Özü də qanunsuz, heç bir sənəd olmadan. Məlumatlara görə, Nizami İsgəndərovun bu qanunsuz obyektinin sökülməsi haqda məsələ müzakirə olunur. Aylıq dövriyyəsi yarım milyon manat olduğu deyilən ticarət mərkəzinin abadlıq işləri çərçivəsində söküləcəyi, köhnə vəziyyətə gətiriləcəyi istisna edilmir.

Sülh küçəsindəki obyektlərin arasında Zaman İsgəndərovun qardaşı, vaxtilə təhsil nazirinin müavini olmuş İsgəndər İsgəndərovun oğlu Rüfət İsgəndərova məxsus obyektlər də var. Beləliklə, yeni icra başçısı illərlə Sumqayıtda dərin kök salmış, şəhərin hesabına milyonlara sahibi olmuş oliqarxlarla üz-üzədir.

**Sakinlər deyir ki, Z.Fərəcova ümidləri böyükdü. Bunu da onunla əsaslandırırlar ki, o, sumqayıtlıdır.** "17 yaşından bu şəhərdə yaşayır. Abşeronda icra başçısı olanda da Sumqayıtı tərk etmədi. Ona görə də düşünürük ki, Zakir müəllim canı-dildən nəsə edəcək. Amma bilmirik ki, o, bu cür pullu, imkanlı və arxalı adamlarla bacaracaqmı? Rəhmətlik Heydər Əliyev iclasda bunlara təpəndi. Dedi, özünüzü yığışdırın. Amma sonra yenə bildiklərini etdilər" - deyə bir başqa şəhər sakini müxbirimizə bildirib.

**Sakinlər ürək ağrısı ilə söyləyiblər ki, oliqarxlar Sumqayıtda qazandıqları pulların cüzi hissəsini belə şəhərdəki ictimaiyyətin istifadəsində olan obyektlərə xərcləmək istəmirlər:** "Zakir müəllim gələn kimi şəhərdəki uşaq bağçalarının dam örtüyünü dəyişdirdi, həm orda, həm də ümumiyyətlə təhsil sistemində rüşvətin kökünü kəsdi. Amma Sumqayıtdan milyardlar qazanan bu adamlar ona dəstək olmadılar. Məsələn, bir maşın asfalt alıb küçələrə vura bilərdilər, yaxud bir uşaq bağçasının damının yenilənməsi üçün vəsait ayırardılar. Etmədilər. Bunlarınkı puldu, xalq veclərinə də deyil".

Hazırda Sumqayıtın sahilkənarı ərazilərində də qızğın işlər gedir. Corat qəsəbəsi istiqamətindən Sumqayıta qədər uzanan dənizkənarı yolun genişlənməsi üçün hazırlıq işləri görülür. Dəniz kənarındakı istirahət mərkəzlərinin standartlardan kənar tikilən hasarları sökülür. Standarta uyğun olan hasarlara aqlay üzlük vurulur. Məlumatlara görə, həmin istiqamətdən də Sumqayıta yolun 8 zolaqlı çəkilməsi planlaşdırılır. Amma bu yolun çəkilişində də bəzi problemlərin olduğu deyilir. Bəzi istirahət mərkəzlərinin sahibləri hasarların geri çəkilməsinə razı olmurlar. Hazırda bu istiqamətdə də problemlərin həll olunması üçün tədbirlər görülür.

Sumqayıt bulvarında da hazırda qızğın iş gedir. Bulvar yenidən qurulur.

Xatırladaq ki, Zakir Fərəcov prezident İlham Əliyevin sərəncamı ilə 2015-ci ilin sentyabrında Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı təyin olunub. Buna qədər o, Abşeronun icra başçısı vəzifəsində çalışıb. Deyilənə görə, Z.Fərəcovun vəzifədə bu qədər sıçrayışla irəliləməsi, yəni kiçik bir rayondan ölkənin üçüncü böyük şəhərinə rəhbər gətirilməsi onun fəaliyyəti ilə bağlıdır. Məhz ölkə başçısının Abşeronda aparılan yenidənqurma işlərindən razı qalması, son 10 ildə Xırdalanın, eləcə də digər qəsəbə və kəndlərin abadlaşdırılması Z.Fərəcova etimadın artmasına, onun Sumqayıt kimi bir şəhərə icra başçısı təyin olunmasına səbəb olub.

Prezidentdən kart-blanş almış, onun xeyir-duası və razılığı ilə ciddi layihələrə başlamış Zakir Fərəcov Sumqayıtda kök salmış və az qala mafiyalaşmış qruplaşmalara qalib gələ biləcəkmi? Həmin qruplaşmalar yeni icra başçısını öz iradələrinə tabe etdirə biləcəklərmi? Bütün bunları zaman göstərəcək...

**Yazıda adları keçən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

**❑ "Yeni Müsavat"ın reportyor qrupu**





Karvandan görüntü

YENİ MÜSAVAT
N 7 (6328) 12 yanvar 2016

# Kartof doğrudanmı qaraciyərimizi məhv edir?

## Həkim Seyfəddin Əsəd: "Kartofun zərərli qida olması haqda deyilənlər yanlışdır"

**İngiltərədə aparılan araşdırmalara görə kartof qaraciyər üçün zərərli bir qida növüdür. Araşdırmaların sonucunda alimlər deyiblər ki, kartof qaraciyərə ən az spirtli içkilər qədər zərər verir. Araşdırmanı aparan professorlar həyatı boyu spirtli içki içməyənlərin məhz karbohidrata görə qaraciyər çatışmazlığı ilə üzləşə biləcəklərini vurğulayıb. Gündəlik olaraq istifadə etdiyimiz kartof və çörək kimi yüksək miqdarda karbohidrat ehtiva edən qidalar qaraciyəri məhv etməklə yanaşı, ürək və damar sistemi üçün də təhlükəli hesab edilir. Belə qidalar şəkər xəstəliyinə yaxalanmaq riskini artırır.**



Maraqlıdır, doğrudanmı kartof zərərlidir, yoxsa bu, ingilis araşdırmaçıların uydurmasıdır?

İnternet üzərindən apardığımız araşdırmalara görə, kartof xalq təbabətində qida əhəmiyyətli, dərman xüsusiyyətli, texniki və nektar təbiətli bitki sayılır. Xalq təbabətində kartof şirəsindən vərəmin, tənəffüs orqanlarının, mədə yarasının, onikibarmaq bağırsağın müalicəsində istifadə edilir.

Kartofun zərərlərinə gəlincə isə bir sıra həkimlər qızardılmış kartofun olduqca zərərli olduğunu deyirlər. Qızardılma zamanı kartofun faydalı xüsusiyyətləri itir, ziyanı isə kosmik sürətlə artır. Məhz bu səbəbdən mədə-bağırsaq sistemi pozulmaları olan insanlar üçün qızardılmış qidaların qəbulu əks-göstərişdir. Lakin ingilis araşdırmaçıların qeyd etdiyi kimi, kartofun ümumilikdə qaraciyər üçün zərərli bir qida olması həqiqəti əks etdirmir.

**Tanınmış həkim, təbii üsullarla müalicə eksperti Seyfəddin Əsəd də kartofun qaraciyərə zərərli olması fikri ilə razılaşmadığını bildirdi:** "Kartof ikinci çörək adlanır. Çörəkdən sonra insanı doyuzduran kartof və düyüdür. Çörəyin özündə müəyyən ziyanlılıq var ki, kartofda bu yoxdur. Rusiyada göyərti yoxdur, şaxtadır. Burada insanları yaşadan, vitamin C verən kartofdur. Mədə yarasını sağaldan yeganə vasitə kartofun şirəsidir. Yanığı, yaranı sağaldan, mədənin turşuluğunu götürən kartof şirəsidir. Soruşurlar ki, qurd xəstəliyinə qarşı nə yemək olar, deyirik ki, kartof soyutması. Kartof heç nəyə zərəri olmayan bir qidadır. Kartof həyatdır. Hətta xərçəng xəstəliyinə qarşı da kartof şirəsindən istifadə mühüm rol oynayır. Mən bir həkim kimi kartofun zərərli bir qida olması haqqındakı fikirləri qəbul etmirəm. Bir də görürsünüz ki, yazırlar ki, kofe ziyanlı içkidir. Digər yandan da yazır ki, kofe xərçəngi müalicə edir. Neçə illik tarixdə kartofun zərəri haqda heç bir qeyd yoxdur".

❑ Günel MANAFLI

# Bank sektorunda islahatlar başlayacaqmı?

## Dövlət başçısı bir daha bankların probleminə toxunub, problemlər ciddidir, ekspertlər çıxış yollarını sadalayır...

**Devalvasiyadan sonra ölkə banklarının da durumu kritikdir. Artıq bəzi banklar filiallarını bağlayır. Ekspertlər isə ilin sonuna qədər əksər bankların bağlanacağının anonsunu verir. Həmçinin çıxış yolu kimi bankların birləşməsi də təklif edilir.**

Fevralın 1-dən "Bank Respublika" üç rayonda filiallarını bağlayacaq. Bildirilir ki, filialların bağlanmasının səbəbi ölkənin maliyyə sistemində yaranmış vəziyyət, həmin filialların rentabellik və potensial baxımından aşağı səviyyədə olmasıdır.

Qeyd edək ki, yanvarın 10-da dövlət başçısı İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da bankların probleminə toxunulub. İlham Əliyev bank sektorunda islahatların aparılması, özəl bankların ölkə iqtisadiyyatının inkişafında daha fəal iştirak etməsi ilə bağlı fikirlərini çatdırıb.

Qeyd edək ki, hazırda bankların birləşməsinin vacibliyini həm ekspertlər, həm banklər, həm də tənzimləyici qurum olan Mərkəzi Bank etiraf edir. Məsələnin ötən il dekabrın 25-də ölkənin banklarının rəhbərləri ilə keçirilmiş görüşdə də müzakirə olunduğu bildirilir.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında qeyd edib ki, problemin ciddiliyi hökumət tərəfindən diqqətə alınmalıdır:** "Banklar birləşərkən tək aktivləri deyil, passivləri də birləşdirilir. Yəni ki, çox pis aktivləri olan, problemli kreditləri, xarici borcları olan bankların birləşməsinin əksinə, xeyri olmayacaq. Söhbət böyük və ayaqda duran bilən bankların kiçik bankları özünə birləşdirməsindən gedə bilər. Azərbaycanda da təəssüf ki, belə bank çox azdır, barmaqla sayılacaq qədər azdır. Ona görə də bankların bağlanması, tamamilə fəaliyyətini dayandırması da olacaq. İri bankların kiçik bankları özünə birləşdirməsi, təmərküzləşməsi pozitiv addım olardı. Sadəcə, bizdə problem odur ki, bütün bankların eyni tipli problemləri var. Yəni xarici borcları çoxdur, daxili kreditlərin yığılmasında problemlər var, problemli kreditlər həddindən artıq yüksək səviyyəyə çatıb. Bütün bunlar təbii ki, bankların ümumi durumunu pis vəziyyətə salıb. Ona görə də tək təmərküzləşmə ilə bu problemləri kökündən həll etmək mümkün olmayacaq. Daha ciddi addımlar atılmasına ehtiyac olacaq. Çünki bankrot olan, tamamilə sıradan çıxan bankları da görəcəyik. Çünki bank sektoru çox pis durumdadır. Əgər dövlətin gücü çatacaqsa, müəyyən banklara dəstək əli uzatmalı olacaq. Bunsuz problemi tam çözmək mümkün olmayacaq. Ya dövlət büdcəsi hesabına, ya Neft Fondu hesabına və yaxud da digər resurslar hesabına bank sisteminə müəyyən dərəcədə dəstək vermək lazım olacaq. Bu dəstək elə olmalıdır ki, keçmişdə olan yatırımlar kimi, böyük proqramlar kimi boşa getməsin. Bu dəstək proqramlarının heç olmasa ciddi effekti olsun. Bunun üçün isə ciddi ictimai nəzarətə, media nəzarətinə, hesabatlılığa ehtiyac var. Bunu edəcəklər, ya etməyəcəklər, bu, məsələnin ikinci tərəfidir".

**Ekspert Samir Əliyevin sözlərinə görə, ölkədə 40-dan artıq bank olsa da, bank sektorunun 90 faizdən çoxu 20-25 bankın payına düşür:** "Bankların sayı yarıyadək azalmalıdır. Devalvasiya buna tələbatı gücləndirdi. Banklar birinci devalvasiyanın zərərindən çıxmadan ikincisi ilə üzləşdilər. Təkrar devalvasiya əksər bankların valyuta mövqeyini pozub, aktivlərini pisləşdirib və bank sektorunun zərərini artırıb. Birləşmə qaçılmazdır".

**Ekspert Vüqar Bayramov isə qeyd edib ki, ölkə iqtisadiyyatının həcmini nəzərə aldıqda, bankların sayı lazım olandan 1,5-2 dəfə çoxdur:** "Bu amil likvidliyə təsir edir, onu azaldır. Banklar müştərilər qarşısında öhdəliklərini yüksək səviyyədə yerinə yetirə bilmirlər. Amma bankların birləşməsi inzibati yolla deyil, onları buna stimullaşdırmaqla, müəyyən güzəştlər və etməklə həyata keçirilməlidir".

Əksər ekspertlərin fikrincə, indiki şəraitdə bankların birləşməsi getdikcə sürətlənəcək. Bankların birləşməsinin bazara müsbət təsir edəcəyi güman olunur. Bildirilir ki, bu, kreditlərin faiz dərəcələrinin aşağı düşməsinə də səbəb ola bilər. Mərkəzi Bank da ölkənin kommersiya banklarına birləşməyi tövsiyə edib. Bu məsələ baş direktor Rəşad Orucovun ötən il dekabrın sonunda bank rəhbərləri ilə keçirdiyi görüşdə müzakirə olunub.

❑ Röya RƏFİYEVA

# "Müxalifətin antiböhran təkliflərinə ehtiyac yoxdur"



**Fəzail Ağamalı:** "Prezident başda olmaqla, hökumət gedən proseslərin fərqindədir"



**Natiq Miri:** "Xalqın onları dəstəkləyəcəyinə müxalifətdə əminlik yoxdur"

**Manatın ikinci devalvasiyası ölkədə əhalinin sosial vəziyyətini bir qədər də ağırlaşdırdı. Sosial medialardan da göründü ki, vətəndaşlar hökumətdən mövcud vəziyyətlə bağlı çıxış yolu istədikləri kimi, müxalifətdən də bu proseslərə bir etiraz səsi gözlədilər. Azərbaycanın müxalifət partiyaları isə sadəcə olaraq, sosial şəbəkələr, mətbuat üzərindən hökumətə böhrandan çıxmaq yollarını təklif etdilər.**

Məsələ ilə bağlı musavat.com-a danışan **deputat Fəzail Ağamalı** bildirib ki, ümumiyyətlə, müxalifətin bu cür təkliflər verməsinə ehtiyac yoxdur:

"Prezident başda olmaqla, hökumət gedən proseslərin fərqindədir. Bu ilin 10 yanvar tarixində də ölkə başçısının hökumətin hesabatında verdiyi açıqlamalar, söylədiyi fikirlər birmənalı şəkildə sübut edir ki, cənab prezident baş verən hadisələrin tamamilə fövqündədir. Ölkə başçısı ölkəni dünyanı bürüyən və getdikcə dərinləşən iqtisadi-siyasi böhrandan sığortalamaq üçün lazım olan addımların atılması barədə konkret tapşırıqlar verir. Tamamilə əminəm ki, bu gün ölkə başçısı və onun komandasında antiböhran xarakterli proqram sənədləri mövcuddur. Xatırlatmaq istərdim ki, 2016-cı il büdcə layihəsi hazırlanan zaman ölkənin maliyyə naziri Samir Şərifov millət vəkillərinin qarşısında çıxış edərkən bildirdi ki, hökumət üç layihə hazırlayıb. Bu, dolların devalvasiyası və neftin qiymətinin aşağı düşməsi ilə bağlı idi. Birincisi, neftin qiymətinin 50 dollar, ikincisi 50-30 dollar arası və 50 dollardan yuxarı olmasına uyğun olan layihələr idi. Biz 50 dolların üzərində dayandıq və həmin büdcəni təsdiq etdik. İndi əgər başqa addıma ehtiyac olarsa, artıq hökumətin əlində neftin qiymətinin 30 dollara qədər düşməsi zamanı görüləcək işlər üçün konkret proqram var. Bu baxımdan hesab edirəm ki, hökumətə təqdim edilən böhranla bağlı proqramlara heç bir ehtiyac yoxdur. Hökumət özü lazım olan tədbirləri görür və görəcək".

**Politoloq Natiq Miri isə musavat.com-a bildirib ki, müxalifət bu gün real imkanlar çərçivəsində hərəkət etmək məcburiyyətindədir:** "Çünki hətta müxalifət bu gün küçələrə çıxsa da, indiki şəraitdə fiziki baxımdan böyük güc toplamaq imkanında deyil. Eyni zamanda xalqın onları birmənalı dəstəkləyəcəyinə də müxalifətdə əminlik yoxdur. Çünki hələlik devalvasiya hadisələri və bundan zərər çəkən cəmiyyətdən bir növ sosial sifariş hiss olunmur. Bu baxımdan müxalifət hələ ki gözləmə mövqeyini seçmək məcburiyyətindədir. Paytaxtla müqayisədə regionlarda ümumi sosial vəziyyət daha çətindir. Buna görə də artıq müşahidə edirik ki, bölgələrdə lokal da olsa müəyyən sosial etirazlar dirçəlməkdədir. Hesab edirəm ki, bu etirazlar intensivləşdikcə, hakimiyyət isə konkret olaraq antiböhran proqramını ortaya qoymadıqca, müxalifət də tərpənmək məcburiyyətində qalacaq. Müxalifət bunu öz gücü ilə edəcək səviyyədə deyil. Sosial sifariş olduğu təqdirdə hesab edirəm ki, müxalifət bu fürsəti fövtə verməyəcək".

**Politoloq bildirib ki, eyni zamanda müxalifətin hazırkı susqunluğu hakimiyyətə bir zaman şansı tanımaq anlamı da daşımalıdır:** "O mənada ki, bu gün əksər postsovet və neft istehsal edən ölkələrdə müəyyən iqtisadi krizislər, devalvasiya prosesləri gedir. Ancaq buna adekvat olaraq, bir çox ölkələr çox ciddi antiböhran proqramları ortaya qoyublar. Azərbaycanda isə hələ ki, bu sözdən irəli getməyib. Ölkədə iqtisadi baxımdan vəziyyət müsbətə doğru dəyişməsə, müxalifət konkret siyasi qərarlar qəbul etmək məcburiyyətində qalacaq. Əks təqdirdə, təbii ki, müxalifətin fəaliyyətinin sıfıra bərabər olması görünəcək. Bu isə onların siyasi gələcəyi üçün konkret müəyyənedici faktora çevriləcək ki, müxalifət artıq mövcud duruma müdaxilə etmək gücündə deyil. Əgər xalqda bu cür fikir oturarsa, bu, onlar üçün siyasi faciə olacaq".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 7 (6328) 12 yanvar 2016

# Banklar əhalini aldatmaqla pul qazanmaq istəyir

## Ekspertlər bildirirlər ki, müflislik həddində olan banklar əmanətlərin tam sığortalanmasını istəyir, çünki...



**Son aylar əksər banklar əhalinin əmanətlərini verməkdən imtina edir. Bankların maliyyə durumunun yaxşı olmaması səbəbindən əmanətlərin qaytarılmasında problemlər yaranır. Ekspertlər detalları izah edirlər. Bildirilir ki, banklar əmanətçiləri aldadaraq müxtəlif ərizələr imzaladır.**

"Son vaxtlar artıq bir neçə bank əhalinin əmanətini tam və ya qismən qaytarmaqdan imtina edir, yaxud dollar əmanətini manatla qaytarmağı təklif edir. Bu zaman əmanətçiləri müxtəlif bəhanələrlə aldadaraq özlərinə sərf edən ərizələrə imza atdırır. Məsələn, qorxudurlar ki, guya əmanət vaxtından əvvəl tələb edildikdə, lakin bank onu hələlik qaytara bilmədikdə, əmanət artıq sığortalanmış olmur" deyə, **ekspert Əkrəm Həsənov** məsələni izah edir. Onun sözlərinə görə, Mülki Məcəllənin 947.2-ci maddəsinə əsasən əmanət müqaviləsinin şərtlərindən asılı olmayaraq, əmanətçinin ilk tələbi ilə bank əmanətin məbləğinin ən azı dörddə bir hissəsini dərhal, qalan hissəsini isə ən geci 5 iş günü müddətində qaytarmalıdır. Vətəndaşın əmanəti ilk tələb üzrə almaq hüququndan imtina etməsi haqqında müqavilənin şərti əhəmiyyətsizdir. Əmanət də olduğu valyutada qaytarılmalıdır. "Əmanətlərin sığortalanması haqqında" Qanunun 27.1-ci maddəsinə görə, hətta Əmanətlərin Sığortalanması Fondu da dollar və avroda olan əmanətləri həmin valyutada ödəməlidir. Əlbəttə, əmanətçinin istəyi ilə əmanət manatla da qaytarıla bilər. Lakin əmanətçi bunu istəmirsə, xarici valyutada olan əmanəti bank həmin valyutada qaytarmalıdır".

**Ekspertin sözlərinə görə, buna görə də bankın əmanəti tam və ya qismən qaytarmaqdan, yaxud xarici valyutada olan əmanəti həmin valyutada qaytarmaqdan imtina etməsi kobud qanun pozuntusudur:** "Bankın bu əməli ilə bağlı 2 dövlət orqanına, yəni Mərkəzi Banka və İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə şikayət edilə, həmçinin məhkəmədə iddia qaldırıla bilər. Ümumiyyətlə, belə halları ictimailəşdirmək lazımdır ki, həmin bankın etibarsız olduğunu hamı bilsin və ora pul qoyulmasın. Yeri gəlmişkən, normal bank sistemində sağlam banklar da bu iflasda maraqlı olmalıdır. Axı bərbad banklar bütövlükdə bütün banklara etimadı sarsıdır, iqtisadiyyatımıza zərbə vurur. Müəyyən texniki səbəblərdən bankın uzağı 1 günlük likvidlik problemi yarana bilər. Yəni hansısa bank gün ərzində əmanətləri qaytara bilmədikdə, bu, hələ onun müflis olması demək deyil. Belə halda Mərkəzi Bankın borcudur ki, sonuncu instansiya kreditoru olaraq həmin banka kredit versin. Lakin Mərkəzi Bank hesab etsə ki, sözügedən bankın problemi daha ciddidir, yəni o, artıq müflisdir, dərhal onun lisenziyasını almalıdır. Bundan sonra əmanətçi əmanətini artıq Əmanətlərin Sığortalanması Fondundan ala bilər. Bizim Mərkəzi Bankın rəhbərliyi bankların qarşısında o qədər gözükölgəlidir ki, nəinki aylar, hətta illər boyu belə bankların lisenziyasını almır. Təbii, onlara kredit də vermir. Nəticədə zərəri əmanətçi çəkir: pulunu nə bankdan, nə də Əmanətlərin Sığortalanması Fondundan ala bilmir. Mərkəzi Bankın belə bankın lisenziyasını almaması həmçinin onunla bağlıdır ki, Mərkəzi Bank əmanətin Əmanətlərin Sığortalanması Fondu hesabına ödənilməsindən yayınmaq istəyir. Çünki həmin fondu faktiki olaraq Mərkəzi Bank idarə edir. Ehtimal etmək olar ki, fondun vəziyyəti qənaətbəxş olmadığından, Mərkəzi Bank fondun əmanətləri qaytara bilməyəcəyini bilir və bundan qorxur. Eyni zamanda da Mərkəzi Bank banklara elə bərbad nəzarət edib ki, böyük ehtimalla onların çoxunun müflis olduğunu gözəl bilir və fondun bütün əmanətləri qaytarmağa gücünün çatmayacağını anlayır. Məhz buna görə də lisenziyaların alınması prosesinə başlamaqdan qorxur. Əmanətlərin Sığortalanması Fondu dövlət qurumu deyil, əmanətləri dövlət tərəfindən sığortalanmayıb, dövlətin əmanətlərə görə heç bir məsuliyyəti yoxdur. Dövlət bankları olan Beynəlxalq Bank və AzərTürkBank istisnadır. Buna görə bankların kütləvi müflisliyi halında sözügedən fond əmanətləri qaytara bilməyəcək və özü də müflis olacaq. Başqa sözlə, əmanətlər batacaq".

Ə.Həsənov qeyd edib ki, hazırda həm Mərkəzi Bankın rəhbərliyi, həm də bankların sahibləri və rəhbərləri vaxt udmaq istəyir: "Mərkəzi Bankın rəhbərliyi yəqin ümid edir ki, onu tezliklə dəyişdirəcəklər və zəruri qərarları yeni rəhbərlik verməli olacaq. Buna görə də bank sisteminin bərbad vəziyyətinə görə məsuliyyəti həmin yeni rəhbərliyin üzərinə qoymaq mümkün olacaq. Həmçinin yəqin ki, Mərkəzi Bankın rəhbərliyinin bankların qarşısında xeyli qeyri-rəsmi öhdəlikləri var. Bankların sahibləri və rəhbərləri isə vaxt udaraq öz vəsaitlərini banklardan çıxarmaq istəyir. Bunun üçün isə üç şey tələb olunur, imkan daxilində daha çox krediti qaytarmaq, əmanətləri qaytarmamaq, yeni əmanətlər cəlb etmək. Sonuncunu reallaşdırmaq üçün banklar yaxında əmanətlərin məbləğindən və faiz dərəcəsindən asılı olmayaraq tam sığortalanmasına nail olmaq istəyir. Başqa sözlə, əhalini bu yolla şirnikləndirmək istəyirlər. Çünki manatın devalvasiyası nəticəsində xarici valyutada olan əmanətlərin xeyli hissəsi sığortalanmamış qalır. Əgər Mərkəzi Bank və banklar əmanətlərin tam sığortalanmasını mümkün hesab edirsə, niyə indiyədək bunu etməyiblər? Niyə bank sisteminin yaxşı günündə bunu etmədilər, məhz pis günündə etmək istəyirlər? Deməli, bunu nə əhali, nə də ölkə iqtisadiyyatı üçün deyil, sırf öz şəxsi məqsədləri üçün etmək istəyirlər. Çünki problemli kreditlərin sayı arta-arta gedir, əmanətlər çıxarılır, buna görə də pulsuz qalıblar. Problemlərini yenə də əhalinin hesabına həll etmək istəyirlər".

❑ RÖYA

# Nardaranda sökülən evlərin sakinləri etiraz edir

## Onlar mənzillərin 1 kvadratmetrinə görə veriləcək 400 manat kompensasiyadan narazıdırlar





**Ötən il dekabrın 1-dən Daxili Qoşunların və polisin nəzarətində olan Nardaranın abadlaşdırılması istiqamətində görülən işlər davam edir. "Azəryolservis" ASC tərəfindən qəsəbənin mərkəzi küçələrində təmir-tikinti işləri aparılır. Yolların genişləndirilməsi zamanı söküntüsü planlaşdırılan mənzillərin sahibləri narazıdır.**

Musavat.com-a müraciət edən qəsəbə sakinləri evlərinin sökülməsi zamanı onlara veriləcək kompensasiyadan narazıdırlar. Sakinlərə bildirilib ki, yaşayış və qeyri-yaşayış obyektlərinin söküntüsü zamanı vətəndaşlara 100-400 manat məbləğində kompensasiya ödəniləcək.

Hazırda təmir-tikinti işlərinin davam etdiyi Abşeron küçəsinin sakinləri söküntü zamanı mənzillərinin 1 kvadratmetrinə görə veriləcək 400 manat kompensasiyadan narazıdırlar. Sakinlər deyir ki, bu məbləğlə yenidən ev tikmək və ya ev almaq mümkün deyil. Həyətyanı sahələrə verilən kompensasiyanın məbləği isə 100 manatdır.

Abşeron küçəsində yerləşən və yolun genişləndirilməsi zamanı plana düşəcək evlərin siyahıya alınması "Azəryolservis" ASC tərəfindən həyata keçirilir.

**Qurumun mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli musavat.com-a açıqlamasında bildirdi ki, Abşeron küçəsində aparılan təmir-tikinti işləri çərçivəsində sökülməsi nəzərdə tutulan yaşayış və qeyri-yaşayış obyektləri "Azəryolservis" ASC tərəfindən siyahıya alınır, ölçü işləri aparılır. Lakin ayrılacaq kompensasiyanın miqdarını Maliyyə Nazirliyi müəyyənləşdirir.**

"Biz yalnız təmir-tikinti işləri zamanı yaşayış və qeyri-yaşayış obyektlərinin siyahıya alınmasını həyata keçiririk. Kompensasiyanın məbləği Maliyyə Nazirliyi tərəfindən müəyyən edilir. Yaşayış və qeyri-yaşayış obyektlərinə ödəniləcək kompensasiya 100-400 manat arasında dəyişir" deyə, A.Nəcəfli bildirdi.

Sakinlərə əlavə olaraq prezidentin 26 dekabr 2007-ci il tarixli fərmanına əsasən, prezidentin Ehtiyat Fondundan 20 faiz kompensasiya da ödəniləcək.

Onun sözlərinə görə, təmir-tikinti işlərinin aparıldığı Abşeron küçəsində artıq 11 ailəyə kompensasiya ödənilib. Daha 51 yaşayış və qeyri-yaşayış obyekti ilə bağlı siyahıyaalma işləri görülüb və hazırdır.

**Görülən işlərin nə zaman yekunlaşacağına gəlincə isə A.Nəcəfli qeyd etdi ki, hazırda qəsəbədə aparılan işlər paralel şəkildə davam etdirilir:** "Yolların genişləndirilməsi, asfalt örtüyünün dəyişdirilməsi işləri aparılır. Hazırda Abşeron küçəsində işlər davam etdirilir. Analoji işlərin qəsəbənin Nəsrulla Əsgərov küçəsində də aparılması nəzərdə tutulub. Yenidənqurma işləri digər qurumlarla birgə paralel şəkildə aparılır. Kommunikasiya xətləri dəyişdirilir. İşlərin nə zaman yekunlaşacağını demək mümkün deyil. Bəzən hava şəraiti də görülən işlərə təsir edir. Amma ən qısa zamanda işlərin yekunlaşdırılması üçün çalışırıq".

Xatırladaq ki, prezident İlham Əliyev Nardaran qəsəbəsinin abadlaşdırılması, qəsəbədəki sosial - mənzil infrastrukturun yenilənməsi, qəsəbənin sosial problemlərinin həlli məqsədilə 12 milyon manat məbləğində vəsait ayrılması üçün sərəncam imzalayıb.

❑ İlkin MURADOV

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 7 (6328) 12 yanvar 2016



**İşğalçı Ermənistanın Qarabağı dinc yolla azad etmək niyyətində olmadığı növbəti dəfə yüksək səviyyədə bəyan edildi. Azərbaycan prezidenti İlham Əliyev bazar günü hökumət üzvləri ilə keçirdiyi müşavirədə danışıqların son durumuna aydınlıq gətirməklə müharibənin real olduğu barədə səslənən fikirləri təsdiqləmiş oldu.**

# İrəvan nə sülh, nə də işğala son qoymaq istəyir - savaşın bir addımlığında...

Prezident Dağiq Qarabağ konfliktinə və ötən ilin dekabrında Berndə Ermənistan prezidenti Serj Sərkisyanla görüşünə toxunarkən danışıqlarından pozitiv nəticə gözləyənlərin ehtimallarının üstündən xətt çəkib. "Keçə il Dağlıq Qarabağ münaqişəsinin nizamlanması baxımından heç bir irəliləyiş əldə olunmayıb. Prezidentlərin son görüşü isə formal xarakter daşıyırdı" deyən ölkə rəhbəri İrəvanı günahlandırıb. Prezident qeyd edib ki, danışıqlar prosesində irəliləyişin olmamasının səbəbi Ermənistanın sülh istəməməsi ilə bağlıdır.

"Ermənistan sülh istəmir. Status-kvonu mümkün qədər çox saxlamaq istəyir, işğal edilmiş torpaqlardan çəkilmək istəmir və danışıqları, sadəcə olaraq, bir proses kimi qəbul edir, vaxt uzatmaqla məşğuldur". Dövlət başçısı vurğulayıb ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqları sonsuz bir proses kimi gələcəkdə də görmək istəyir: "Bizim isə mövqeyimiz tam fərqlidir. Biz münaqişənin həllini istəyirik və Minsk Qrupunun həmsədrləri də dəfələrlə bildiriblər ki, onlar da münaqişənin həllini istəyirlər. Ancaq əfsuslar olsun ki, bu istiqamətdə işğalçıya heç bir ciddi təzyiq göstərilmir".

Mövcud duruma Ali Baş Komandan və prezident səviyyəsində verilən qiymət, qeyd olunduğu kimi, sülh danışıqlarına inamı azaltmaqla yanaşı, müharibə ehtimalını reallaşdırır. Ekspertlər də Qarabağ danışıqlarının dalana dirənməsi şəraitində savaş riskini yüksək qiymətləndirir.

**Politoloq Arzu Nağıyev qəzetimizə açıqlamasında dedi ki, Ermənistan rəhbərliyi təbii ki, münaqişənin həllinin uzadılmasında maraqlıdır:** "Çünki Sərkisyan rejiminin çökməsi özünü konstitusiyaya dəyişikliklər edilməsi ilə bağlı keçirilən referendumda da büruzə verdi və əsas məsələ törədilən cinayətlərdə cavabdehliyin azalması, iqtisadi tənəzzülün bir hissəsindən qaçmaq və s. kimi yadda qaldı. Məlumdur ki, Sərkisyan və onun komandası səhra komandirlərindən təşkil edilən cinayətkar dəstədirlər və Dağlıq Qarabağ münaqişəsi üzərindən hakimiyyətə yiyələniblər. Məhz buna görə də onlar maksimal dərəcədə hakimiyyətdə qalmağa çalışacaqlar və təbii ki, buna onların havadarları da imkan yaradır. Bu gün artıq Ermənistanla bərabər, Dağlıq Qarabağın erməni icması da Sərkisyan rejimindən narazıdır. Bu baxımdan münaqişənin həllində müəyyən imkanlar yarana bilər. Bu mənada Sərkisyan və onun komandası aqressivlik nümayiş etdirir".

**A.Nağıyev qeyd etdi ki, Dağlıq Qarabağ münaqişəsinin həlli məhz ATƏT-in Minsk Qrupuna həvalə edilsə də, bu təşkilat deklorativ bəyanatlardan başqa heç bir addım atmır:** "Burada əsas məsələ Madrid prinsipləri çərçivəsində münaqişənin həllidir. Burada isə ərazi bütövlüyü əsas şərt kimi qəbul edilməlidir. Ermənistan rəhbərliyi də bunu qəbul etmir və hətta Dağlıq Qarabağın öz əraziləri olduğu iddiası ilə qondarma və təxribat xarakterli bəyanatlar yayır. Bunun da bir sıra məqsədləri var, əsas məsələ status-kvonu saxlamaq, vaxtı uzatmaq, havadarlarının verəcəkləri bəyanatları gözləməkdir. Beynəlxalq təşkilatlar da ATƏT-in Minsk Qrupunda təmsil olunan Rusiya və Fransa da birbaşa erməniləri dəstəkləyir. Buna görə də münaqişənin həlli uzanır. Hətta Prezident İlham Əliyev də öz çıxışında qeyd etdi ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqları sonsuz bir proses kimi gələcəkdə də görmək istəyir. Təbii ki, bu, Azərbaycan tərəfini qane edə bilməz. Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi uzandıqca biz istər böyük məqa-layihələrin, istərsə də digər siyasi proseslərin həyata keçirilməsində geri qalırıq. Bir sözlə, hər hansı bir yolla, istər sülh, istər hərbi və ya hərbi güc nümayiş etdirməklə təcavüzkarı danışıqlar masasına əyləşdirmək gərəkdir. Əks halda, Qarabağ məsələsi dünyada bu qədər stasus-kvonun saxlanıldığı analoqsuz münaqişəyə çevrilə bilər".



**Arzu Nağıyev:** "Ermənistan rəhbərliyi münaqişənin həllinin uzadılmasında maraqlıdır"



**Elxan Şahinoğlu:** "Nəticəsi olmayan danışıqlar ona görə davam edəcək ki, heç olmazsa müharibənin qarşısı alınsın"

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, dövlət başçısı İlham Əliyevin "Ermənistan sülh istəmir" fikri 2016-cı ildə də cəbhə bölgəsində gərginliyin davam edəcəyinin xəbərçisidir:** "Rəhbəri olduğum "Atlas" Araşdırmalar Mərkəzinin keçirdiyi sorğuda respondentlərin əksəriyyəti müharibənin başlaması ehtimalını yüksək qiymətləndirib. Başqa cür olması da çətindir. Çünki vətəndaş da görür ki, danışıqlar nəticə vermir və cəbhə bölgəsində vəziyyət gərgin olaraq qalır. Digər tərəfdən, ATƏT-in Minsk Qrupu çərçivəsindəki danışıqlar da münaqişənin həllini yaxınlaşdırmır. Əlbəttə, Avrasiya bölgəsindəki mürəkkəb durumu nəzərə alaraq müharibənin mütləq mənada baş verəcəyini söyləmək çətindir. İlham Əliyev Nazirlər Kabinetinin toplantısındakı çıxışında qeyd etdi ki, Azərbaycan Rusiya ilə Türkiyə arasında və Səudiyyə Ərəbistanı ilə İran arasındakı münasibətlərin gərginləşməsindən narahatdır. Bu isə o deməkdir ki, belə vəziyyətdə Cənubi Qafqazda müharibənin başlanması böyük dövlətlərin maraqlarının kəsişməsini bir az daha üzə çıxaracaq".

**E.Şahinoğlunun sözlərinə görə, bu gün ən vacib sual budur:** "Azərbaycanla Ermənistan arasındakı savaşda böyük dövlətlərin davranışı necə olacaq? Buna baxmayaraq, 2016-cı ildə biz həm atəşkəsin intensiv pozulmasının və itkilərin, həm də danışıqların davamının şahidi olacağıq. Atəşkəs daima ona görə pozulacaq ki, Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa hazır deyil. Nəticəsi olmayan danışıqlar isə ona görə davam edəcək ki, heç olmazsa müharibənin qarşısı alınsın".

**Politoloq deyir ki, istənilən gərginlik halında danışıqlara son qoyula bilməz:** "Çünki bu, avtomatik müharibənin başlanması deməkdir. Ona görə də nə Azərbaycan, nə də Ermənistan masadan qalxmayacaqlar. Sadəcə, danışıqlar imitasiya xarakteri daşıyacaq".

# Ermənilərin Türkiyə, Azərbaycan və Gürcüstana ərazi iddiası

## Politoloq: "Ermənilərin təşəbbüsü onların arzusu olaraq qalacaq"



Şahin Cəfərli

**Son zamanlar Rusiyadakı ermənilər xeyli fəallaşıb. Rusiya Dövlət Dumasının "erməni soyqırımı"nın inkarına görə cinayət məsuliyyətini nəzərdə tutan qanun layihəsini gündəmə gətirməsi bu ölkədə yaşayan erməniləri xüsusilə həvəsləndirib. Üstəlik, tarix boyu olduğu kimi, fürsətcilliyi ilə ad çıxaran ermənilər indi də Moskva və Ankara arasında yaşanan gərginlikdən maksimum öz xeyrinə istifadə etməyə çalışır.**

Düzdür, hələlik qondarma "soyqırım"la bağlı layihənin təsdiqlənəcəyinə ümid azdır. Məsələn, hətta tanınmış rusiyalı hərbi ekspert, MDB ölkələri İnstitutunun Qafqaz şöbəsinin rəhbəri Vladimir Yevseyev erməniləri məyus edərək bildirib ki, o, saxta "etməni soyqırımı"nı inkara görə cəza nəzərdə tutan qanun layihəsinin Dövlət Dumasında keçəcəyini az ehtimallı sayıb.

Dağlıq Qarabağ münaqişəsinə gəlincə, rusiyalı hərbi analitik konflikt ətrafında vəziyyətin mürəkkəb və proqnoz edilməyən olduğunu söyləyib. Onun sözlərinə görə, Türkiyə Azərbaycana aktiv şəkildə kömək edir. "O cümlədən bir sıra azərbaycanlı kəşfiyyatçı qruplar Türkiyədə hazırlıq keçir" - əlavə edib Yevseyev. Bu, o qədər absurd məsələdir ki, hətta azərbaycanlı milyarder və ictimai-siyasi xadim Fərhad Əhmədov nümunə göstərərək Rusiya Dövlət Dumasının spikeri Sergey Narışkinə etiraz məktubu yazıb. Həmvətənimiz "erməni soyqırımı"nın inkarına görə cinayət məsuliyyətini nəzərdə tutan qanun layihəsinin qəbuluna imkan verməməyə çağırıb. Məktubda deyilir ki, əgər bu qanun layihəsi qəbul edilsə, Fərhad Əhmədov Rusiya vətəndaşlığından çıxacaq. Lakin Rusiya erməni kartı ilə Türkiyəni geri çəkilməyə vadar etməyə çalışır. Üstəlik, Jirinovskinin anons etdiyi kimi, ermənilərin Türkiyəyə qarşı səfərbər olunması prosesinə start verilib. Belə ki, ermənilər 16 mart 1921-ci ildə imzalanmış Rusiya-Türkiyə müqaviləsinin denonsasiyası (ləğvi) üçün kampaniya başlayaraq, artıq mindən çox imza toplayıblar. Petisiyanın müəllifi Rostov-Dondan olan erməni Hamlet Qriqoryandır.

**Petisiya mətnində iddia olunur ki, 1921-ci ilin 16 martında Moskvada Rusiya-Türkiyə müqaviləsi imzalanıb:** "Bu müqavilə ilə Ermənistanın 3 vilayəti Türkiyə və Azərbaycanın xeyrinə əlindən alınıb. Həmin ilin payızında Moskva müqaviləsinin əsasında Türkiyə, Ermənistan, Azərbaycan və Gürcüstan arasında Qars müqaviləsi imzalanır. Bu, Moskva müqaviləsinin qısaldılıb, redaktə olunmuş variantı idi. Müqaviləyə görə, Batum vilayəti Ermənistandan alınaraq Gürcüstana, Qars, Surmalin və Ararat Türkiyəyə, Naxçıvan isə Azərbaycana verilir. Beləliklə, Ermənistanın hesabına Türkiyə, Azərbaycan və Gürcüstanın ərazisi böyüdülür".

Digər hədyanların da yer aldığı petisiya mətnindən göründüyü kimi, ermənilər eyni vaxtda 3 dövlətə qarşı növbəti dəfə ərazi iddiası irəli sürür.

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a bildirdi ki, beynəlxalq şərait hər dəfə mürəkkəbləşəndə ermənilər bundan yararlanmaq fikrinə düşür:** "Görünür, indi də Rusiya-Türkiyə münasibətlərində yaranmış böhrandan necə xeyir əldə etmək üzərində düşünərək belə bir yol tapıblar. Lakin bu təşəbbüsü ciddiyə almağa dəyməz. Rusiya rəhbərliyinin də bunu ciddi qəbul edəcəyini düşünmürəm. 1921-ci il müqaviləsi müasir Türkiyənin sərhədlərinin Rusiya tərəfindən tanınmasını nəzərdə tutan sənəddir. Bunu tamamlayan sənəd kimi eyni il imzalanan Qars müqaviləsi əsasında Azərbaycan, Ermənistan və Gürcüstanın indiki sərhədləri müəyyənləşdirilib. Rusiyanın Moskva müqaviləsindən çıxması Türkiyəyə ərazi iddiası irəli sürmək demək olardı, Moskvanın belə bir addıma getməsi ehtimalını isə sıfra bərabər sayıram. Əvvəla, iki ölkə münasibətlərində gərginlik olsa da, tərəflər əlaqələri kəsməyib. Diplomatik münasibətlər davam edir, səfirlər geri çağırılmayıb. Müəyyən səviyyədə iqtisadi əlaqələr də qalır. Digər tərəfdən, Rusiyanın Türkiyəyə qarşı ərazi iddiası irəli sürməsi üçün heç bir səbəb yoxdur, bu, Rusiyanın maraqlarına cavab vermir".

**Ş.Cəfərlinin fikrincə, hətta iki ölkə münasibətləri daha da gərginləşsə belə, yenə də o, Rusiyanın Türkiyəyə qarşı ərazi iddiası irəli sürəcəyinə inanmır:** "Çünki bu, Rusiyaya lazım deyil. Eyni zamanda Türkiyənin təhlükəsizliyi və ərazi bütövlüyü NATO-nun təminatı altındadır və Türkiyə ilə münaqişə NATO ilə münaqişə deməkdir. Ona görə də ermənilərin təşəbbüsü onların arzusu olaraq qalacaq". **Ermənilərin Gürcüstana ərazi iddialarına gəldikdə isə, politoloq qeyd etdi ki, bu da yenilik deyil:** "Onlar Cavaxetiya bölgəsinə, eləcə də Batuma iddia edirlər. Bu iddialar üzündən 1918-ci ildə iki tərəf arasında müharibə də baş verib. Müharibə əsasən Borçalı ərazilərində gedib. Hətta general Dronun dəstələri paytaxt Tiflis yaxınlığına qədər irəliləyiblər. Lakin sonda məğlub olublar. Ərazi iddiaları bu gün Ermənistan dövləti tərəfindən rəsmi səviyyədə irəli sürülərsə, təbii ki, bunun iki ölkə münasibətlərinə ciddi təsiri olar. Rusiya ermənilərinin təşəbbüsü isə Ermənistan-Gürcüstan əlaqələrinə hər hansı təsir göstərə bilməz".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

# Kişi arvadını killer tutub öldürtdürdü

## Bakıdakı sifarişli qətlin səbəbi məlum oldu



**Bakıda törədilən sifarişli qətlin bəzi detalları məlum olub. Musavat.com xəbər verir ki, qətlin sifarişçisi Rüstəm Rzayev sahibkarlıq fəaliyyəti ilə məşğul olub. Onun Zabrat-Maştağa yolunun üstündə ticarət obyekti var və əsasən meyvə-tərəvəz məhsullarının topdan satışı ilə məşğul olurmuş**

Həyat yoldaşı Sevil Rzayeva ilə münasibətlərində problem yaranan R. Rzayev ondan ayrılmağa qərar verib. Yanvarın 18-də məhkəmə onların boşanması ilə bağlı məsələyə baxacaqmış. Ərinin ondan boşanmasında israrlı olduğunu görən S. Rzayeva həyat yoldaşından ona məxsus evdən və obyektdən pay verməsini tələb edib.

R. Rzayev isə S. Rzayevaya mülkündən pay verməmək üçün onu öldürtmək qərarına gəlib.

Ər 48 yaşlı arvadının qətlə yetirilməsi üçün Elşad Həsənov və onun qohumu Kərim Həsənova 2 min manat verib.

Anasının meyitini oğlu Ruslan Rzayev görüb. O, qətl barədə məlumatı atasına verib. Atası isə özünü heç nə olmamış kimi aparıb.

Ruslan Rzayevin sözlərinə görə, atası və anası arasında münaqişə əvvəldən olub. Rüstəm Rzayev evi tərk edibmiş və qardaşıgildə yaşayırmış. O, öz evinə hər gəlişində həyat yoldaşı Sevil Rzayeva ilə aralarında dava olurmuş, qadın polisə müraciət edirmiş.





Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğundan APA-ya verilən birgə məlumatda qeyd olunur ki, paytaxtın hüquq-mühafizə orqanlarının həyata keçirdikləri təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində Sabunçu rayonu ərazisində qeyri-aşkar şəraitdə törədilmiş daha bir qətlin üstünü "isti izlər"lə açılıb.

Aparılmış istintaqla Rüstəm Rzayevin keçmiş arvadı Sevil Rzayevanı öldürtmək məqsədi ilə tanışı Elşad Həsənovla 2000 manat müqabilində qabaqcadan razılaşaraq sonuncunun yanvarın 10-da Sevil Rzayevanın yaşadığı evə daxil olub özü ilə götürdüyü küt alətlə mərhumənin baş nahiyəsinə zərbə endirməklə onu qəsdən öldürməsində əsaslı şübhələr olduğundan Elşad Həsənov və Rüstəm Rzayevin əməli Cinayət Məcəlləsinin 120.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qəsdən adam öldürmə) maddəsinə tövsif edilib.

Belə ki, yanvarın 10-da Bakı şəhəri, Sabunçu rayonu, Zabrat qəsəbəsində yaşamış 1965-ci il təvəllüdlü Sevil Rzayevanın üzərində zorakılıq əlaməti olan meyitinin yaşadığı evdə aşkar edilməsi ilə bağlı daxil olmuş məlumat əsasında rayon prokurorluğu və polis idarəsinin əməkdaşları tərəfindən hadisə yerinə və meyitə məhkəmə-tibb ekspertinin iştirakı ilə baxış keçirilib, maddi sübutlar götürülüb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Fakta görə həmin tarixdə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanaraq müvafiq ekspertizalar təyin edilib.

Polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən mərhumənin keçmiş əri Rüstəm Rzayev və tanışı Elşad Həsənov tutularaq istintaqa cəlb ediliblər.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**




# Maşın dirəyə çırpıldı - ölənlər var

**Bakıda ağır yol-nəqliyyat hadisəsi olub. AzNews.az xəbər verir ki, hadisə Ziya Bünyadov prospektinin Heydər Əliyev prospekti ilə kəsişməsinin yaxınlığında qeydə alınıb.**

"Honda" markalı 30 BG 362 dövlət nömrə nişanlı avtomobil dirəyə çırpılıb. Qəza zamanı ölənlərin də olduğu bildirilir.

Baş vermiş yol-nəqliyyat hadisəsi nəticəsində hər iki istiqamətdə nəqliyyat vasitələrinin hərəkət sıxlığı müşahidə olunub. Sürücülərə alternativ olaraq Heydər Əliyev prospektindən istifadə etmələri tövsiyə olunub.

# "Sonalar Sonası" şadlıq evi və "Favorit" marketdə qanunsuzluqlar aşkarlanıb

**Bu ilin 6-8 yanvar tarixlərində aksizli malların dövriyyəsinin tənzimlənməsi qaydalarına əməl edilməsi vəziyyətini yoxlamaq məqsədilə Vergilər Nazirliyi tərəfindən Bakı şəhəri də daxil olmaqla, bütün rayon və şəhərlərdə vergi nəzarəti tədbirləri keçirilib.**

Nazirliyin Analitik-informasiya şöbəsindən "APA-Economics"ə verilən məlumata görə, ümumilikdə 145 vergi ödəyicisində, o cümlədən "Ameqo" MMC topdansatış bazası, "Sonalar Sonası" şadlıq evi, "Favorit" marketdə bir sıra qanun pozuntuları aşkar edilib.

Keçirilmiş tədbirlər zamanı 84 vergi ödəyicisi tərəfindən aksizli malların az miqdarda nağd qaydada satıldığı müəyyən edilərək, İnzibati Xətalar Məcəlləsinin 229.2-ci maddəsinə əsasən barələrində 8 400 manat məbləğində inzibati cərimə tətbiq olunub. 47 vergi ödəyicisi üzrə mal qalığının yoxlanılması zamanı 234 752,8 manat dəyərində 57 542 ədəd alkoqollu içkilər və tütün məmulatlarının əldə edilməsini (alınmasını) və dəyərinin nağdsız qaydada ödənilməsini təsdiqləyən sənədlər təqdim olunmadığından, onlar götürülərək, məsul saxlamaya verilmiş və toplanmış materiallar hüquqi qiymət verilməsi üçün Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilib.

Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, 68 a ünvanında yerləşən "NAİQİN-K TOVUZ BALTİYA" MMC-yə məxsus "Tovuz Konyak" evində əməliyyat tədbiri keçirilərək, nəzarət qaydasına alınıb, külli miqdarda spirtli içkilərin nağd qaydada satışının həyata keçirildiyi müəyyən edildiyindən və toplanmış materialda Cinayət Məcəlləsinin 213-1.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin əlamətləri olduğundan məsələ ilə bağlı 06.01.2016-cı il tarixdə cinayət işi başlayıb.

# Azərbaycanda daha 3 nəfər dəm qazından öldü

**Yanvarın 9-da ölkədə daha 3 nəfər dəm qazından boğulub. Lent.az Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, Qaradağ rayonunun Puta qəsəbəsində yaşayan Elnurə Məmmədrzayeva, Kürdəmir rayonunda yaşayan Vasif Mikayıllı evlərində dəm qazından zəhələnərək ölüb. Bundan başqa, Nəsimi rayonu ərazisində yaşayan Arzu Abdullayeva dəm qazından zəhərlənmə ilə xəstəxanaya gətirilib və orada vəfat edib.**

Hər bir faktla bağlı araşdırmalar aparılır.


**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 7 (6328) 12 yanvar 2016

# Cinayət və intiharların artmasına devalvasiyanın təsiri var

**Psixoloq Dəyanət Rzayev:** "Bu gün cəmiyyətdəki ab-hava çox gərgindir və o, hər bir insana təsir göstərir..."

**Neftin ucuzlaşması fonunda baş verən iki devalvasiya nəticəsində manatın dəyərdən düşməsi insanların maddi vəziyyətini çətinləşdirməklə yanaşı, onların davranışlarına da təsir edib. Belə ki, gələcəyə ümidləri azalan insanların davranışında da müəyyən aqressivlik müşahidə edilməkdədir.**

Təbii ki, son durumun nəticəsi olaraq Azərbaycanda istər özəl, istərsə də dövlət müəssisələrində çalışanların ixtisarı başlayıb və proses güclənə bilər. Bu cür situasiyalar isə onsuz da gərgin psixoloji vəziyyətdə olan insanların əsəblərini daha da tarıma çəkib. Təsadüfi deyil ki, bir çox ekspertlər, psixoloqlar indiki situasiyada oğurluqların, cinayətlərin və intiharların sayının artacağı qənaətindədir. Hətta oğrular yeni fəaliyyət növü tapıblar, evlərə müxtəlif adlarla soxulurlar. Bundan başqa son bir həftədə baş verən qətllərin sayı da ekspertlərin bu fikirlərinin düzgünlüyünü söyləməyə əsas verir.

Maraqlıdır, doğrudanmı cinayətlərin, qətllərin, oğurluq hallarının artması iqtisadi vəziyyətlə bağlıdır, yoxsa təsadüfdür?

**Psixoloq Dəyanət Rzayev bizimlə söhbətdə bunun bir induksiya olduğunu söylədi:** "Burada induksiya da var. Ümumiyyətlə, problemlər üst-üstə gələndə, insan ümidlərini itirəndə onun daxilində müəyyən vəziyyət yaranmağa başlayır. Artıq insan öz ailəsini, gələcəyini görmür. Belə olan təqdirdə isə təbii ki, aqressiya çoxalır. Bu da cinayətlərin artmasına təsir göstərən əsas faktorlardan biridir. Bir cinayət hadisəsi baş verəndə ard-arda oxşar cinayətlər silsilə kimi baş verir. Məsələn, kimsə özünü yandırır, başqaları da bu üsula əl atıb özünü yandırır. Bu, bir induksiyadır - yəni kiçikdən böyüyə. Təbii ki, cinayətlərin, intiharların artmasında devalvasiyanın da təsiri var. Bu gün cəmiyyətdəki ab-hava çox gərgindir. O gərginlik hər bir insana təsir göstərir. İnsanlar işə gedib gəlir, avtobusa minir və beləcə psixoloji gərginliklərini bir-birilərinə ötürürlər".



Dəyanət Rzayev

**Psixoloq bu cür cinayətlərin artmasında ədalətsizlik prinsipinin də rol oynadığını bildirdi:** "1990-cı illərdə müharibə gedirdi, aclıq idi, çox çətin dövrlər yaşayırdıq. Amma heç kim özünü öldürmür, cinayət işləmirdi. Bu dövrdə oğurluq, cinayət, qətllər yox idi. Sanki xalq çətin bir vəziyyətdə daha da birləşmişdi, mehriban idi. Amma indi 1990-cı illərə baxanda vəziyyət çox fərqlidi. İnsanlar çətin bir vəziyyətdə o zamankı kimi birləşmir, əksinə, aqressivləşir. O zamanlar yalanlar yox idi. Bu gün yemək yoxdur, problemlər var. İnsanlarda müəyyən ümidlər vardı ki, nəsə alıb sataram, kiçik ticarətlə ailəmi böhranlı vəziyyətdən çıxara bilərəm. Amma indi gömrük haqqı və tələb olunan digər məbləğlər nəinki insanı qazanmağa qoyur, əksinə, əlində olanını da itirməsinə səbəb olur. O vaxtlar belə şeylər yox idi. Ona görə də insanlar sabaha ümidlə baxırdılar. İndi isə insanlarda ümidlər qırılıb. Gələcəyə dair heç bir işıq ucu görə bilmirlər. Əslində o zamandan bu zamana heç nə dəyişməyib. O vaxtlar da insan 120 manat təqaüd alırdı, indi də elə alır. Amma o vaxt insanda ümid vardı, hərəkət edirdi. İndi ümumi ab-hava belədir ki, insanlar bir-birinə qarşı çox aqressivdir. Mən deyərdim ki, hazırkı duruma səbəb rüşvətxorluq, korrupsiyadır".

❑ **Günel MANAFLI**

# Twitter Azərbaycanda niyə populyarlıq qazana bilmir?

**Osman Gündüz:** "Qısa paylaşımlar internet istifadəçiləri üçün maraqlı görünmür"

**Geridə qoyduğumuz ötən ilin statistikasına görə Azərbaycanda twitter istifadəçilərinin sayı 52,2 faiz artıb. Bu şəbəkə ölkədə sosial medialar arasında facebookdan sonra ikinci yerdə dayanır. Bugünlərdə isə bu şəbəkədə işarə sayına qoyulan məhdidiyyətlərin aradan qaldırılacağı gündəmə gəldi. Məlumata görə, twitter işarə sayının 140-dan 10 minə artırılmasını nəzərdən keçirir. 10 ildir ki, bu sosial şəbəkədə 140 işarəlik limit mövcuddur. Məqsəd twitter-in istifadəçi bazasını, reklamdan satışını və digər gəlirlərini artırmaqdır.**




Bütün bunlara baxmayaraq, Azərbaycanda twitter-in populyarlığı o qədər də gözə çarpmır. Səbəb nədir?

**Multimedia Mərkəzinin rəhbəri Osman Gündüz** bununla bağlı "Yeni Müsavat"a açıqlama verib. Onun sözlərinə görə, twitterdə paylaşılan qısa məlumatlar internet istifadəçiləri üçün o qədər də cəlbedici görünmür: "Son günlərin statistikası onu göstərir ki, Azərbaycanda sosial media sahəsində twitter-in dinamikası digərlərindən o qədər də yüksək deyil. Əvəzində isə faceboook, İnstaqram, YouTube daha çox populyardır. Düşünürəm ki, bunun kökündə əvvəllər də formalaşmış bir səbəb durur. Bir müddət bundan öncə facebook nüfuz qazanmağa başladı. Daha sonra isə İnstaqram şəkil paylaşımları üçün cəlbedici görünməyə başladı. Ardınca isə qısa yazılar üçün insanlar twitter-də toplandılar. Lakin görünür, sonradan qısa yazı ilə fikri çatdırmaq maraq dairəsindən çıxdı.

Lakin diqqət etsək görərik ki, Azərbaycanda İlk Avropa Oyunları keçirilən zaman daha çox twitter istifadə edildi. Həmin zaman Azərbaycan haqqında həqiqətlərin dünyaya çatdırılmasında bu sosial şəbəkənin xüsusi əhəmiyyətli rolu oldu. Lakin sonra onun populyarlaşmasında enmə getdi. Fikrimcə, twitter bundan sonra yenə də populyarlıq qazana biləcək.

Bugünlərdə twitter-ə qoyulan məhdudiyyətin aradan qaldırılacağı bildirildi. Yəni xəbərlərə qoyulan simvolların sayı artırılacaq. Düşünürəm ki, bu kimi addımlar onun populyarlıq qazanmasına kömək edəcək".

**Osman Gündüz hazırda daha çox facebook sosial şəbəkəsinin populyar olduğunu deyib:** "Birmənalı olaraq bu belədir. Daha sonra isə WhatsApp və digərləri aktiv dinamikaya malikdir. Bildiyiniz kimi, WhatsApp-a qoyulan məhdudiyyətin bir hissəsi qalıb, yəni danışıq funksiyası. Mobil telefon üzərindən bu sosial şəbəkədə danışıq etmək mümkün deyil, bu yalnız wi-fi ilə mümkündür. Bu məhdudiyyət aradan qaldırılsa, fikrimcə, WhatsApp-ın dinamikası xeyli artacaq".

**Multimedia Mərkəzinin rəhbəri özünün daha çox istifadə etdiyi sosial şəbəkəni açıqlayıb:** "Əsasən facebook-dan istifadə edirəm. Orda mənim ictimai qurumlarım, resuslarım var. Twitter-dən isə çox az hallarda istifadə edirəm. Ümumiyyətlə, digər sosial şəbəkələrdən az istifadə etməyimin səbəbi vaxt imkansızlığımıdır. İnsanlar çalışmalıdırlar ki, sosial şəbəkələrdən daha çox faydalanmaq üçün istifadə etsinlər, nəinki əylənmək üçün. Mənim də ən çox faydalandığım sosial şəbəkə facebook-dur".

❑ **Xalidə GƏRAY**




# İqtidar və müxalifət liderləri sosial şəbəkələrdə nə yazır...

"Vicdan problemi", "Antiböhran proqramı"...

**Manatın ikinci dəfə devalvasiyaya uğraması ölkə ictimaiyyətinin əhval-ruhiyyəsini tamamilə dəyişib. Ötən il dekabrın 21-dən bu günədək mətbuatın əsas və gündəmdən düşməyən mövzusu məhz bununla bağlıdır. Vətəndaşların sosial şəbəkələrdə əksər paylaşımları ölkədəki hazırkı vəziyyətə köklənir. Bəs görəsən, iqtidar və müxalifət liderləri hazırkı durumda sosial şəbəkələrdə nə paylaşır? Məsələ ilə bağlı bir neçə siyasi liderin statuslarını nəzərdən keçirdik.**

**Ölkə prezidenti İlham Əliyev** twitter-də sonuncu dəfə 5 yanvar tarixində status paylaşıb. Prezident statusunda bildirib: "Azərbaycan demokratiya, inkişaf yolu ilə gedir. Bu, bizim şüurlu seçimimizdir".

**Böyük Quruluş Partiyasının sədri, millət vəkili Fazil Mustafa** isə 9 yanvar tarixində twitter-də "Vicdan proqramı" adlı yazısını paylaşıb. Millət vəkili öz yazısında "İndi Azərbaycana antiböhran proqramı deyil, Vicdan proqramı lazımdır" sözlərini qeyd edib: "Biz ayrı-ayrılıqda insanlar olaraq və bütövlükdə bir milli-siyasi orqanizm olaraq zənginlik sınağından uğurla çıxmadıq. Fərdi olaraq da, hökumət olaraq da israfçılıq yönümüz xeyli artıq oldu. Bu illərin bir müsbət faktı o oldu ki, ölkəmizin xaos və müharibə girdabı içinə sürüklənməsi baş vermədi. Qanunsuzluqlar, özbaşınalıqlar, ədalətsizliklər oldu, ancaq bütövlükdə dövlətimizin hüdudları içində etnik, dini, siyasi və sosial qarşıdurmalar baş vermədi. İndi də biz ayrı-ayrı fərdlər və bütöv cəmiyyət olaraq yoxsulluqla, qıtlıqla, qeyri-sabit büdcə ilə sınağa çəkilirik. İndi ümid edək ki, şöhrət duyğusu ilə bahalı avtomobil sürmək üçün bu qədər kredit məbləğinin altına ağlı başında olanlar daha girməyəcək, mütəvazi toy və yas məclisləri keçirəcəklər, bahalı istirahətləri məhdudlaşdıracaqlar, özlərinə lazım olan kvadratda ev tikəcəklər, gündəlik həyatda sərt qənaət rejimi tətbiq edəcəklər. İndi hər kəs bir böhran proqramı, təkliflər paketi ilə hökumətin qarşısına çıxır... İndi Azərbaycana Antiböhran proqramı deyil, Vicdan proqramı lazımdır".

**Ümid Partiyasının sədri İqbal Ağazadə** isə twitter-də sonuncu dəfə 8 yanvar tarixində paylaşım edib. Partiya sədri "Ümid Partiyası antiböhran proqramı təklif etdi" adlı yazı təqdim edib.

Əsasən facebook-da aktiv olan siyasi liderlərin diqqət çəkən statuslarını təqdim edirik.

**Dünya Azərbaycanlıları Konqresinin və VHP-nin sədri Sabir Rüstəmxanlının son statusu xalq şairi Zəlimxan Yaqubun** vəfatı ilə əlaqədardır. Sabir Rüstəmxanlı paylaşdığı statusunda xalq şairi ilə olan xatirələrindən bəhs edib, "Çağdaş ədəbiyyatımızda sazla sözün vəhdətini saxlamaq baxımından Zəlimxana bənzər qələm sahiblərimiz, təəssüf ki, yoxdur" sözlərini qeyd edib.

AXCP sədri Əli Kərimli isə 11 yanvar tarixində paylaşdığı statusunda 2016-cı ilin "Multikulturalizm ili" elan olunmasına münasibət bildirib, bu ilin gözləniləndən də çətin olacağını vurğulayıb.

Ana Vətən Partiyasının sədri, millət vəkili Fəzail Ağamalı isə şərh bildirdiyi "Süni qiymət artımına yol verənlər ciddi şəkildə cəzalandırılmalıdır" başlıqlı yazını paylaşıb. Millət vəkili yazısında bildirib: "Bu gün Azərbaycan xalqının cibinə girərək, oğurluq edərək, insanları daha çətin vəziyyətə salıb varlanmağa çalışanlar Azərbaycan qanunları çərçivəsində çox ciddi şəkildə cəzalandırılmalıdır".

❑ **Xalidə GƏRAY**

# YENİ MÜSAVAT

## Son səhifə

N 7 (6328) 12 yanvar 2016




## Duzla müalicə ilə bağlı maraqlı faktlar

**Adi xörək duzu çox geniş müalicəvi xüsusiyyətlərə malikdir. Xalq təbabətində duz müxtəlif nasazlıqlar zamanı çox təsirli müalicəvi vasitə kimi uğurla istifadə olunur. Ənənəvi tibb də duzun müalicəvi xüsusiyyətlərini təsdiq edir.**

Qədim zamanlarda duz məhlulu kəskin və xroniki iltihablar, irinli yaralar zamanı istifadə olunurdu. Dahi Hippokrat öz praktikasında duz islatmalarından istifadə edib. Tanınmış rus cərrahı Piroqov müharibə zamanı duz islatmalarını yaraların müalicəsində uğurla istifadə edib.

Dəniz duzu əsasında hazırlanan burun damcıları pediatriyada tətbiq edilir və çox yaxşı müalicəvi effekt verir. Belə damcıların əks-göstərişləri və yanaşı təsirləri yoxdur. Duz məhlulu göbələk əleyhinə təsirə malikdir. Bu səbəbdən duzla ayaq vannaları göbələk zamanı yaxşı kömək edə bilər. Həmçinin bu sadə vasitə pis ayaq qoxusunu yox etməyə kömək edir. İrinli yaralar zamanı 1 stəkan suda 1 xörək qaşığı duz həll olunur, bu məhlulda bir neçə qat qatlanmış tənzif isladılır və yaraya qoyulur. Baş ağrıları zamanı 1 stəkan ılıq suda 1 çay qaşığı duzu həll edin, tənzifi məhlulda isladıb alnınıza qoyub bir qədər uzanın.

Duz kosmetologiyada da çox geniş istifadə olunur. Xörək duzunu yağlı xama ilə qarışdırın və skrab şəklində istifadə edin. Bu skrab dərini yaxşı təmizləyir, daha hamar edir, rəngini yaxşılaşdırır.

# Esperanza almazı 1 milyona satışda

**Ötən həftə ABŞ-ın Arkanzas ştatında tapılan Esperanza almazı ölkədə təşkil edilən hərracda satışa çıxarılacaq. Hər il minlərlə adamın almaz kəşfinə çıxdığı və indiyədək 75 mindən çox dəyərli daşın çıxarıldığı Almaz Krateri Milli Parkında axtarış edən Bobbie Oskarson adlı qadının tapdığı almazın bu ay satışa çıxarılacağı gözlənilir.**

Tapıldığı zaman 8,52 karat olsa da kəsildikdən sonra 4,6 karat qalan almazın dəyərinin 1 milyon dollar olduğu təxmin edilir. "Esperanza" adı verilən almaz bu günə kimi parkda tapılan beş almazdan ən böyüyüdür. Oskarsonun bacısı uşağının adını verdiyi almaz formasına görə də digərlərindən fərqlənir. Məlumat üçün bildirək ki, Almaz Krateri Milli Parkı dünyada xalqa açıq tək almaz parkıdır. 1924-cü ildə orada 40,23 karatlıq almaz tapılmışdı.



# Boşansa, ərinə 10 milyon dollar ödəyəcək

**Britaniyanın populyar müğənnisi və aktrisalarından olan Şeril Koulun ikinci nikahı da uğursuz olub. O, fransız restovrator və pleyboy Jan-Bernar Fernandes-Versinidən boşanır. Milli.az TMZ-yə istinadən bildirir ki, 32 yaşldı Şeril Koulla 33 yaşlı Jan-Bernarın nikahları cəmi 19 ay çəkib.**

Ailədə problemlər iki ay əvvəl yaranıb. Jan-Bernar "belə ailə həyatından bezdiyini" deyirmiş. Şeril yaşananları sirr kimi saxlamağa çalışsa da bacarmayıb. O, münsiflər heyətinin üzvü olduğu "The Voice" şousunun çəkilişlərindən birində ağlayıb. Aktrisanın dediyinə görə, ailənin dağılmasının səbəbi ərinin ifrat qısqanclığıdır: "Narahtlıq üçün heç bir səbəb olmasa da, o, son vaxtlar qeyri-adekvat davranırdı. İş o yerə çatıb ki, məni hətta itlərimə də qısqanır. Deyir ki, onunla müqayisədə itlərə daha çox vaxt ayırıram".

Şeril Koulun ilk əri futbolçu Eşli Koul idi. Şerillə Jan-Bernar ailə quranda nikah müqaviləsi imzalamadıqları üçün müğənni boşanarsa, sabiq ərinə 10 milyon dollar ödəməlidir.





## 5 yaşında atasını xilas etdi

**Fransada 5 yaşlı uşaq atası infarkt keçirdiyi zaman anasının yanına getmək üçün velosipedlə 3 kilometr yol gedib. Yolda getdiyi yerə tələsdiyi hiss edilən uşaq hadisə haqqında məlumat verdiyi zaman atasının həyatı xilas edilib.**

Fransanın Le Pay de La Loire bölgəsindəki Saint-Pierre-La-Cour qəsəbəsində yaşayan 5 yaşlı Kevin Djene adlı uşaq atasının həyatını xilas edə bildiyi üçün qəhrəman uşaq elan edilib. Gecə yarısı atasının halı pisləşən uşaq anasının 10 kilometr uzaqlıqdakı iş yerinə getmək üçün dondurucu soyuqda pijamaları və ayaqqabıları ilə yola çıxıb. 3 kilometr yol gedən uşaq maşınla yol gedən iki nəfərin diqqətini cəlb edib.

Maşın sürücüsü uşağı dayandırıb nə baş verdiyi haqda məlumat aldıqdan sonra polisə və təcili tibbi yardıma məlumat verib. Xəstəxanaya aparılan uşağın atası xilas edilib və Kevin ölkədə qəhrəman elan edilib.

## Qoroskop




**QOÇ** - Aldığınız yeni və gözlənilməz təkliflərdən imtina etməyin. Çünki ulduzlar bu istiqamətdə böyük perspektivdən xəbər verir. Daşınmaz əmlak alqı-satqısında isə qətiyyən iştirak etməyin.

**BUĞA** - Qarşınızda elə bir gün durub ki, ən azı ötən iki ayda dondurulan əksər planlarınızı reallaşdırmaq imkanı qazanacaqsınız. Təbii ki, bu istiqamətdə aktivliyinizi də artırmalı, tərəfdarlara güvənməlisiniz.

**ƏKİZLƏR** - Yaxşı olar ki, dostlarınızı imtahana çəkəsiniz. Çünki indi onların əksəriyyəti sizdən sui-istifadə edir. Aldanmamaq üçün bunu etməlisiniz. Əsəblərinizi qorumaq istəyirsinizsə, təbiət qoynunda gəzinməyə dəyər.

**XƏRÇƏNG** - Ulduzlar bildirir ki, bu gün yeni əlaqələr və maddi dirçəliş sizi məmnun edəcək. Səfərə çıxdığınız təqdirdə isə hündür yerlərə qalxmayın. Bu tarixdə qidanıza da fikir verin. Sevgi münasibətlərini isə arxa plana keçirməyin.

**ŞİR** - Əksər Zodiak işarələrində olduğu kimi bu gün sizin üçün də əhəmiyyətli gündür. Yeni əlaqələr, iş təklifləri, büdcədə qismən də olsa artım sizi sevindirəcək. Üstəlik, səhhətiniz də normallaşacaq.

**QIZ** - Əgər zərdüştilərin dediyi "xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl" prinsipinə sadiq qalsanız, saat 12-dən etibarən hər mənada uğurlarınız artacaq. Yeni iş təkliflərinə başdansovdu yanaşmayın.

**TƏRƏZİ** - Bu şaxtalı təqvimdə əsas enerjinizi qarşınızda duran vəzifələrin icrasına yönəltməlisiniz. Hər hansı lovğalıq və ya məsuliyyətsizlik sizi gözdən sala bilər. Saat 15-17 arası müqəddəs yerləri ziyarət edin.

**ƏQRƏB** - Bu gün sübut etməlisiniz ki, astroloqların sizin haqqınızda söylədiyi "əsəbi adam" fikri səhvdir. Bu mənada dedi-qoduya, məhəlli qeybətlərə əhəmiyyət verməyin. Əliniz hər yerdən üzüləndə isə nicatı sevgidə arayın.

**OXATAN** - Təmkinli olmağı bacarsanız, saat 14-dən sonra vəziyyət xeyrinizə dəyişəcək. Fəaliyyət yönümündə və maddi irəliləyişdə zaman xeyrinizə işləyəcək. Amma siyasi qovğalardan uzaq olmalısınız.

**OĞLAQ** - Münasibətlər konteksində ciddi redaktələr etməyinizə böyük ehtiyac var. Ulduzlar məsləhət görür ki, ilk növbədə qarşı tərəfə güzəştə gedəsiniz. Çünki sizin xilasınız ədalətli olmaqdan keçir.

**SUTÖKƏN** - Günün ilk yarısı süst keçməsin deyə həmin ərəfədə darıxdığınız adamlarla görüşməyiniz vacibdir. Bir anlıq bütün qayğılarınızı unutmalısınız. Sonrakı müddətdə isə fəaliyyət müstəvisində böyük uğurlara yetişəcəksiniz.

**BALIQLAR** - Gün ərzində üzərinizə düşən başlıca vəzifə ailə-sevgi münasibətlərini tənzimləməkdir. Digər məsələləri arxa plana salmaq da olar. Bunu bacardığınız təqdirdə digər işləriniz də qaydasına düşəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İki ay oğullarının cəsədi ilə yaşadılar



**İspaniyada yaşayan amerikalı cütlüyün ölmüş oğullarının cəsədi ilə yaşaması hər kəsi şoka salıb. Məlumatlara görə, Bruce və Srell Hopkinslərin astma xəstəsi olan oğulları iki ay əvvəl həyatını itirib. Hadisə ilə bağlı açıqlama verən prokurar Enrique Baratın sözlərinə görə ata-ana gərçəyi qəbul etmək istəməyib: "Onlar cəsədin ətrafında normal həyatlarına davam ediblər və oğullarını ölümünü qəbul etməyiblər. Hopkins cütlüyünün ev sahibi kirayə pulunu almaq üçün evə gəldiyi zaman qorxunc faktın şahidi olub və polisə xəbər verib".**

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300